Günəş Şərqdən doğur!

❒ № 99 (5380), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 8 iyun 2021-ci il (çərşənbə axşamı)



## Rusiya miqrantlara qarşı tələblərini sərtləşdirib

Nədənsə bu qanun azərbaycanlılara qarşı daha sərt işləyir

(Səh.9)

### Günün içindən...



## Bakı və İrəvanın razılığı olmalıdır

Rusiya XİN: Beynəlxalq təşkilatların danışıqlar prosesində iştirakı yalnız bu halda mümkündür

**Rusiya xarici işlər naziri Sergey Lavrov fransalı və almaniyalı həmkarları Jan iv Lö Drian və Hayko Maasla telefonla danışıb.**

Xarici siyasət idarələrinin rəhbərləri Azərbaycan - Ermənistan sərhədindəki və Dağlıq Qarabağ ətrafındakı vəziyyəti, həmçinin, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 9 noyabr 2020-ci il tarixli və 11 yanvar tarixli bəyanatlarının müddəalarının yerinə yetirilməsinin gedişaatını müzakirə ediblər.

(səh.5)

## Ağdamda Qarabağ Universiteti yaradılır



Müxtəlif texniki peşə məktəblərinin və liseylərinin də inşası nəzərdə tutulur

(səh.3)

# Laçın dəhlizini dərhal bağlamalıyıq



## Düşməndən xəritə, humanist davranış gözləmək yersizdir

(səh.7)

# Təkbətək görüş



## Bayden Ərdoğanla Qarabağ məsələsini müzakirə edəcək

(səh.5)

✓ **Laçın və Kəlbəcərə 17 maşın mina basdırılıb**

Ombudsman: "Beynəlxalq təşkilatlar mina xəritələrini açıqlaması üçün Ermənistana qarşı konkret tədbirlər görməlidir"

(səh.2)

✓ **Mina qoyulan yol işlək olub**

Partlayışda sağ qalan rejissor "Şərq TV"-yə danışıb

(səh.8)

✓ **4 nəfər vəfat edib**

221 nəfər koronavirusdan sağalıb, 32 yeni yoluxma faktı qeydə alınıb

(səh.9)

✓ **HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR**

(səh.13)

# Prezident Ramiz Məmmədovla bağlı nekroloq imzalayıb

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ramiz Mahmud oğlu Məmmədovun vəfatı ilə əlaqədar nekroloq imzalayıblar.**

*Nekroloqun mətnində deyilir:*

"Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Coğrafiya sahəsində tanınmış alim, Dövlət Mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, texnika elmləri doktoru, Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, professor Ramiz Mahmud oğlu Məmmədov 2021-ci il iyunun 7-də ömrünün yetmiş ikinci ilində vəfat etmişdir.



Ramiz Məmmədov 1950-ci il fevral ayının 4-də Gürcüstanın Qardabani rayonunun Qaracalar kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1967-1972-ci illərdə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində ali təhsil almış, 1974-1976-cı illərdə Moskva Okeanologiya İnstitutunda təcrübə keçmiş və 1977-1980-ci illərdə həmin İnstitutun aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə 1973-cü ildə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunun Xəzər Elmi Tədqiqat Stansiyasında kiçik elmi işçi kimi başlayan Ramiz Məmmədov 1980-1985-ci illərdə Azərbaycan Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində laboratoriya və şöbə müdiri vəzifələrində çalışmış, 1986-1991-ci illərdə elmi fəaliyyətini Azərbaycan Elmlər Akademiyasının Geologiya və Coğrafiya institutlarında davam etdirmiş, 1991-ci ildən Coğrafiya İnstitutunun Xəzər Dənizi Problemləri Mərkəzinin müdiri, 1995-ci ildən isə həmin İnstitutun elmi işlər üzrə direktor müavini işləmişdir. O, 2012-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun direktoru olmuşdur.

Ramiz Məmmədov 1980-ci ildə okeanologiya ixtisası üzrə namizədlik, 1996-cı ildə hidrologiya, su ehtiyatları və hidrokimya ixtisası üzrə doktorluq dissertasiyaları müdafiə etmişdir. O, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Ramiz Məmmədovun tədqiqatlarının əsas istiqamətlərini Xəzər dənizinin aktual problemləri - iqlim dəyişmələrinin Xəzər dənizinə təsiri, habelə Xəzərin geofizikası və ekocoğrafiyası məsələləri təşkil etmişdir. Coğrafiyaşünas-alim, həmçinin Azərbaycanda səhralaşma prosesinin, landşaft planlaşdırılması və ətraf mühitin mühafizəsi problemlərinin əhatəli öyrənilməsinə xüsusi diqqət yetirmişdir.

Ramiz Məmmədov ölkəmizdə və onun hüdudlarından kənarda nəşr edilən və elmi ictimaiyyət tərəfindən maraqla qarşılanan 300-dək elmi əsərin müəllifidir. Məhsuldar elmi fəaliyyətlə yanaşı, yüksək ixtisaslı kadrların yetişdirilməsi işinə böyük qüvvə sərf edən alimin rəhbərliyi ilə coğrafiya sahəsində 20-yə yaxın fəlsəfə və elmlər doktoru hazırlanmışdır. Ramiz Məmmədov bir sıra beynəlxalq ekspedisiyaların iştirakçısı olmuş, mötəbər konfrans və simpoziumlardakı çoxsaylı çıxışları ilə Azərbaycan elmini layiqincə təmsil etmişdir.

Akademik Ramiz Məmmədovun səmərəli elmi və elmi-təşkilati fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 2016-cı ildə Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüş, 2020-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

*Tanınmış alim, bacarıqlı elm təşkilatçısı və səmimi insan Ramiz Mahmud oğlu Məmmədovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.*

**Allah rəhmət eləsin!**

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fərəh Əliyeva
Ramiz Mehdiyev
Akif Əlizadə
İbrahim Quliyev
Arif Həşimov
Rasim Əliquliyev".

## 12 subartezian quyusunun qazılmasına 840 min manat ayrılıb

**Prezident İlham Əliyev Cəlilabad, Lənkəran, Masallı və Yardımlı rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Cəlilabad, Lənkəran, Masallı və Yardımlı rayonlarının əhalisi 33550 nəfər olan 12 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 12 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 840 min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## Bayden Zelenskini ABŞ-a dəvət edib



**ABŞ Prezidenti Co Baydenlə ukraynalı həmkarı Vladimir Zelenski arasında telefon danışığı olub.**

APA RİA Novosti-yə istinadən xəbər verir ki, bu barədə ABŞ liderinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Bayden Ukrayna prezidentini bu yay Vaşinqtona dəvət edib.

## "Ermənistanın vaxtı bitib"

### Məşhur erməni politoloq tənqidi fikirlərlə çıxış edib



**Məşhur erməni politoloqu Riçard Qiraqosyan Ermənistanın mövcud vəziyyəti ilə bağlı tənqidi fikirlərlə çıxış edib.**

Milli.Az "bizim.media"ya istinadən xəbər verir ki, bu barədə erməni politoloq öz şəxsi feyzbuk hesabında qeyd edib. Qiraqosyan açıqlamasında bildirib ki, "Qarabağ uğrunda baş vermiş 44 günlük müharibənin ən əhəmiyyətli nəticələrindən biri ermənilər üçün təhlükəli "məğlubedilməzlik mifi"nin dağıdılması oldu. İndi də həmin düşüncəni davam etdirmək ölümcül təhlükədir".

Qiraqosyan qeyd edir ki, müharibədən sonrakı reallığa uyğun hər hansı diplomatik strategiya bazasının olmaması, həmçinin Ermənistanın müdafiə sahəsi ilə bağlı cavabsız sualların çoxluğu ölkədəki siyasi və mənəvi böhran şəraitində rahat qərar verməyə imkan yaratmır və buna heç vaxtı da qalmayıb. Hər şey bitib.

Erməni analitik vurğulayıb ki, "Ermənistan PUA təhlükəsinə qarşı daha müasir texnologiyalara ağıllı sərmayələr qoymalı və köhnə modellərin istehsalına davam etməkdən çəkinməlidir".

# Laçın və Kəlbəcərə 17 maşın mina basdırılıb

### Ombudsman: "Beynəlxalq təşkilatlar mina xəritələrini açıqlaması üçün Ermənistana qarşı konkret tədbirlər görməlidir"

"Azərbaycanın işğaldan azad olunmuş Kəlbəcər rayonunda ikisi media əməkdaşı olmaqla, üç nəfər mülki şəxsin həlak olması və bir neçə mülki şəxsin yaralanması ilə nəticələnən ən son mina partlayışından dərhal sonra Ermənistan silahlı qüvvələrinin polkovniki Koryun Qumaşyan mətbuata verdiyi müsahibədə şəxsən və onun əsgərlərinin iştirakı ilə Laçın və Kəlbəcər rayonları ərazilərinə 17 yük maşını minanın basdırıldığı etiraf edilib. Onun bu etirafları bir daha Ermənistanın siyasi və hərbi rəhbərliyi tərəfindən törədilmiş müharibə cinayətlərini sübut edir".



"Şərq"in məlumatına görə, bu fikirlər Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın bəyanatında yer alıb.

Səbinə Əliyeva bildirib ki, sosial mediada yayılan bu etiraf Azərbaycan cəmiyyətində həddindən artıq narahatlıq yaradıb: "Bu törədilən cinayətin birbaşa etirafı olmaqla beynəlxalq humanitar hüququn açıq şəkildə pozulmasıdır və günahkarlar dərhal ədalət mühakiməsinə cəlb olunmalıdır.

Azərbaycan Ombudsmanı olaraq bu məsələni dəfələrlə beynəlxalq təşkilatlar qarşısında qaldırmış, onları Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Ermənistan tərəfindən yerləşdirilmiş minaların xəritələrinin əldə edilməsində köməklik göstərməyə və bununla da günahsız insanların həyatını xilas etməyə çağırmışam".

*Ombudsman təəssüf hissi ilə qeyd edib ki, bu günə qədər qeyd olunan məsələ ilə bağlı hər hansı bir beynəlxalq təşkilatdan müvafiq dəstək alınmayıb:* "Bu təşkilatların susması beynəlxalq hüququn effektivliyini şübhə altına alır və insan hüquqlarının davamlı olaraq pozulmasına şərait yaradır.

Bu minalar həmin əraziləri ziyarət etmək istəyən hər bir şəxs üçün böyük təhlükə mənbəyidir: "Azərbaycanda ötən yeddi ay ərzində 140-dan çox insan minaya düşmüş, 27 mülki şəxs mina partlaması nəticəsində həlak olmuşdur. Bu cinayətə görə Ermənistanın siyasi və hərbi rəhbərliyi məsuliyyət daşıyır".

**Bəyanatda qeyd edilir ki, insan hüquqları yalnız yüksək tribunalarda çıxış mövzusu olaraq qalmamalıdır:** "Dünyada insan hüquqlarının təminatçısı olduğunu iddia edən beynəlxalq təşkilatlar növbəti itkilərin qarşısını almaq məqsədilə mina xəritələrini açıqlaması üçün Ermənistana qarşı konkret tədbirlər görməlidir".

# Ərdoğanın Şuşa səfərindən sonra hərbi sahədə dəyişiklik gözlənilir

## “Türkiyə Qarabağdakı sülhməramlı kontingentin tərkibində say hesabı məsələsini gündəmə gətirə bilər”

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.



Nazirlər bölgədə mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyi üzrə müzakirələr aparılıb.

Nazirlər, eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

**Məlum danışığı ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı bildirib ki, rəsmi məlumatlar olmasa da, Çavuşoğlunun növbəti dəfə Azərbaycana səfəri barədə söz-söhbətlər var:** ”Belə bir səfər baş tutmasa belə, nazirlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səfəri zamanı müzakirə ediləcək məsələlərin öncədən müəyyənləşdirilməsinə dair fikir mübadiləsi aparıblar. Ərdoğanın səfəri dövründə regionda nələrinsə dəyişməsi gözlənilir. Xüsusən hərbi sahədə dəyişikliklər nəzərdə tutulur.

Fikrimcə, Türkiyə Qarabağdakı sülhməramlı kontingentin tərkibində say hesabı məsələsini gündəmə gətirə bilər. Çünki 10 noyabr razılaşmasından sonra Türkiyədə belə bir təklif var idi ki, türk hərbçiləri də ruslarla eyni sayda olsun.

İyunun 2-də Ərdoğanın rəhbərliyi ilə təşkil edilən Türkiyə Milli Təhlükəsizlik Şurasının iclasında Ağdamdakı Türkiyə-Rusiya hərbi Monitorinq Mərkəzinin fəaliyyəti müzakirə olunmuşdu. Düşünürəm ki, hərbi məsələlərin müzakirəsinə dair gözləntilər var. Nazirlər də telefon danışığı zamanı məhz bu məqamları müzakirə ediblər”.

**Analitik vurğulayıb ki, Türkiyə və Azərbaycan üçün vacib olan digər məqam Zəngəzur dəhlizidir:** ”Bu məsələ üzərinə işlər gedir. Üçtərəfli bəyanatın 4-cü maddəsinin, yəni erməni hərbi birləşmələrinin çıxarılması əsasdır. Ərdoğanın səfərindən sonra Azərbaycanın məhz 4-cü maddənin icrası ilə bağlı şərtləri və tələbləri daha da sürətlənəcək. Çavuşoğlu ilə Bayramovun danışığı bu prosesin hazırlığı ilə əlaqədardır”.

**Yeganə Bayramova**

---




# Ağdamda Qarabağ Universiteti yaradılır

## Müxtəlif texniki peşə məktəblərinin və liseylərinin də inşası nəzərdə tutulur

**Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Ağdam şəhərində yaradılacaq Qarabağ Universiteti haqqında açıqlama verib.**

E.Hüseynov ”Report”un Ağdama ezam olunmuş əməkdaşına bildirib ki, Ağdam şəhərinin Baş Planında təhsil məhəlləsi üçün yer ayırılıb:

”Cənab Prezident artıq Ağdam şəhər 1 nömrəli məktəbin təməlini qoydu. Eyni zamanda Baş Planda nəzərdə tutulub ki, bölgədə böyük bir Qarabağ Universiteti məhs Ağdam şəhərində yaradılsın. Bununla yanaşı, müxtəlif texniki peşə məktəblərinin və liseylərinin də inşası nəzərdə tutulur. Bütün bunların konsepsiyası hazırda işlənilir və hazır olduqca ictimaiyyətə təqdim olunacaq”.

---

# Rusiyada 19 yaşlı azərbaycanlının polis tərəfindən öldürülməsi hiddət doğurub



## Rus icması və Azərbaycan ictimaiyyətinin hadisə ilə bağlı Putinə məktub göndərməsi təbiidir

**Mayın 28-də Rusiyanın Novosibirsk şəhərində Dövlət Yol Polisi əməkdaşı tərəfindən azərbaycanlı Vəkil Abdullayev silahla başından atəş açılaraq qətlə yetirilib.**

Sosial şəbəkələrdə baş vermiş hadisənin yayılan görüntüləri zamanı yol polis əməkdaşının Vəkil Abdullayevə qarşı kobudluq etdiyi, onun qollarını buraraq polis avtomobilinə söykədiyi zaman tabel silahı ilə ona atəş açdığı görünür. Başından ağır yaralanan həmyerlimiz mayın 30-da xəstəxanada vəfat edib.

Baş verənlərlə bağlı Azərbaycan ictimaiyyəti Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə məktub ünvanlayıb. Həmçinin Azərbaycan Rus İcmasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mixail Zabelin Vəkil Abdullayevin ölümü ilə bağlı bəyanatla çıxış edib.

**Tanınmış jurnalist Fuad Abbasov 19 yaşlı gəncin ölümü ilə bağlı ”Şərq TV”-yə açıqlama verib.**

Onun sözlərinə görə, Azərbaycan səfirliyinin bu olaylara hər hansı bir şəkildə reaksiya verməsi ölkələrarası diplomatik əlaqələrə ziyan vura bilər: ”Çünki Vəkil Abdullayev Gürcüstanda doğulsa da, Rusiya vətəndaşıdır. Azərbaycanın bu hadisələrə hansısa şəkildə müdaxilə etməsi Rusiyanın daxili işlərinə qarışmaq mənasını verir. Nəticədə Rusiya nota göndərə bilər ki, Azərbaycan nə üçün onun daxili işlərinə qarışır? İnsanlarımız bəzən emosional davranırlar, deyirlər ki, səfirlik mütləq şəkildə müdaxilə etməlidir. Lakin diplomatik etika deyilən bir anlayış var.

Azərbaycandakı rus icması və bir çox ictimai xadim Rusiya Prezidenti Putinə məktub göndərdilər. Məktubda müəyyən etirazlar var idi. Bunu Azərbaycanda yaşayan rus icması istəyirdi və onların haqqıdır. Çünki biz ictimaiyyət olaraq müəyyən tələblər edə bilərik, lakin dövlət olaraq bu tələblər qeyri-qanunidir”.

**Yeganə Bayramova**

---

**“İyunun 20-də Ermənistanda növbədənkənar parlament seçkiləridir. Bölgəmizin gələcəyi, Azərbaycan-Ermənistan münasibətləri üçün vacib siyasi hadisədir”.**



Bu barədə REAL partiyasının təmsilçisi Natiq Cəfərli deyib. Siyasi şərhçi bildirib ki, son zamanlar Ermənistan saytlarını, Rusiya xəbər kanallarını izlədikdən sonra

# Ermənistanda 3 mümkün senari gözlənilir

**Natiq Cəfərli:** *“Seçkilərdə heç bir siyasi partiya və ya blok təkbaşına hökumət formalaşdırmaq üçün yetərli səs yığmaya bilər”*




seçkidən sonra 3 mümkün senarinin olacağı qənaətinə gəlib: ”Seçkilərdə heç bir siyasi partiya və ya blok təkbaşına hökumət formalaşdırmaq üçün yetərli səs yığmaya bilər. Belə halda Ermənistan prezidenti səsvermə nəticələrinə görə növbə ilə hökumət formalaşdırmağı ilk 3 yeri tutan siyasi quruma həvalə edir. Onlar da koalisiya qura bilmirlər və seçkilər ləğv edilir, payıza yeni seçkilər təyin olunur. Yaxud seçkilərdə Paşinyan komandası səs çoxluğu qazanır və təkbaşına iqtidar olmaq üçün kiçik partiyalara ehtiyac duyulur. Danışıqlarla bir neçə mandat qazanmış siyasi təşkilatları koalisiyaya qoşub yenidən hökumət formalaşdırılır. Ya da seçkidən sonra Koçaryan və dəstəsi küçələrə çıxır və seçkilərdə total saxtalaşdırmanın olduğunu bəhanə edərək küçədən hakimiyyətə gəlməyə çalışırlar. Rusiyadan da açıq-gizli dəstək alaraq çevriliş edir və hakimiyyətə gəlirlər. Daxili hesablaşmalar başlayır, həbslər olur və qarışıqlıq artır”.

**N.Cəfərlinin fikrincə, 3-cü senari daha realdır və buna hazır olmalıyıq:** ”Paşinyan anlayır ki, Kreml onu çıxdaş etməyi düşünür. Moskva istənilən halda bunu etmək istəyəcək. Məhz ona görə seçkidən öncə Fransa və ABŞ-dan dəstək alaraq seçkinin legitimlik ”möhürünü” Moskvaya deyil, Qərbdə vermək istəyir. Hər halda 20 iyun seçkilərindən sonra Ermənistan çalxalanacaq, qeyri-sabitlik bir müddət davam edəcək. Həmin dövrdə sərhəddə və Qarabağın hələ də rus-erməni işğalı altında qalan kiçik hissəsində ciddi təxribatlar mümkündür. Ciddi hazırlaşmalıyıq. Seçkilər payıza ertələnsə, sərhəddə və Xankəndi ətrafında təxribatlara güc strukturlarımızla ciddi cavab vermək məcburiyyəti yarana bilər. Bu zaman Moskvanın yeri, rolu və iştirakını ciddi sual altına qoya, onların ərazimizdə mövcudluğunu sorğulaya bilərik”.

**İsmayıl**

# Xəritə qarşılığında erməni terrorçuları geri qaytarmaq doğru olmaz

## "Çünki əmin deyilik ki, həmin xəritələr doğru olacaq və itki verməyəcəyik"

Xəbər verdiyimiz kimi, iyunun 4-də erməni işğalçıları tərəfindən qoyulmuş minanın partlaması nəticəsində Kəlbəcərdə iki nəfər media təmsilçimiz şəhid oldu. Baş vermiş bu hadisədən sonra erməni komandirlərindən biri, polkovnik Koryun Qumaşyanın açıqlaması sensasiya yaradıb.



Polkovnik Koryun Qumaşyan bildirib ki, onlar Laçın və Kəlbəcərdə 17 yük maşını mina basdırıblar: "Mən kontingentimlə birlikdə Laçın və Kəlbəcər yaxınlığında 17 yük maşını mina basdırdıq. Bu ərazidə minalar olduğuna görə heç nə edə bilməyəcəksiniz. Hərbi əsirlərimizi bizə qaytarın və mən mina xəritəsini sizə verəcəyəm".

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli Ermənistan tərəfinin bu informasiyanı yaymasında məqsədin nə olduğu barədə "Şərq"ə danışıb:** "Minalı ərazilərin xəritəsini istəyiriksə, bu, tezis deyil. Çünki sonrakı dönəmdə Ermənistanın üzərindəki məsuliyyəti tamamilə götürə bilər. Bizə hər hansı bir xəritə verə bilərlər, hətta o xəritələrdə müəyyən ərazilərin düzgün olduğunu da isbat etmək mümkündür. Lakin tam olaraq Ermənistanın səmimiyyətinə ehtiyacımız var. Həqiqətən də minalı ərazilərin xəritəsini təqdim edəcəklərmi, doğrudan da jurnalistlərimizin minaya düşüb şəhid olma prosesləri təkrarlanmayacaq? Yaxud bilmədiyimiz hansı kəndlərə minalar basdırıblar? Bu, çox önəmli məsələdir".

**Ə.Əlibəyli qeyd edib ki, bütün dünya Ermənistana minalı ərazilərin qaytarılması ilə bağlı təzyiq göstərməyə başlayıb:** "Amma erməni terrorçuların qaytarılmasına gəlincə, əlimizdə daha çox erməni terrorçuları var, əsirlər yox. Onlar mina xəritələri ilə bağlı eyni paraleldə götürülə bilməz. Faktiki olaraq bu şəxslərin Azərbaycan mülki şəxslərinin qətlə yetirilməsində əli var. Ona görə hərbi əsirləri qaytaraq və əvəzində minalı ərazilərin xəritəsini alaq kimi iddialar absurddur. Çünki əmin deyilik ki, həmin xəritələr doğru olacaq və itki verməyəcəyik. Əvəzində isə erməni cinayətkarlarını geri qaytarırıq. Həmin terrorçuların da geri qaytarılması ölən vətəndaşlarımızın ruhuna hörmətsizlikdir".

**Yeganə Bayramova**

# UNESCO-nun baş direktoru üzgündür

## "Azərbaycanlı jurnalistlərin faciəvi ölümü məni sarsıdıb"



**Azərbaycanlı jurnalistlər Sirac Abışov və Məhərrəm İbrahimovun Kəlbəcər rayonunda minaya düşərək faciəvi şəkildə həlak olması məni sarsıdıb.**

Bu barədə UNESCO-nun baş direktoru Odre Azulenin bəyanatında deyilir.

Baş direktor öz bəyanatında azərbaycanlı jurnalistlərin ölümünü kəskin pisləyib: "Jurnalistlər peşəkar fəaliyyətlərini şəxsi təhlükəsizliklərini riskə atmadan həyata keçirmək imkanına malik olmalıdır".

*Xatırladaq ki, iyunun 4-də Azərbaycan Televiziyasının operatoru 1989-cu il təvəllüdlü Sirac Abışov və 1982-ci il təvəllüdlü Azərtac İnformasiya Agentliyinin əməkdaşı Məhərrəm İbrahimov (Əlioğlu) Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olublar.*

*Həmin şəxslər işğaldan azad olunmuş ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış yaşayış məntəqələrinin çəkilişini həyata keçirirdi.*

# Başına güllə sıxacaq adam Paşinyan yox, Sarkisyandır

## "Azərbaycan məhz Sarkisyanla, Koçaryanın qurduğu ordunu məğlub edib"



**Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan Paşinyan hakimiyyətini sərt tənqid edib. Erməni mediasının məlumatına görə, Sarkisyan Vayots Dzor bölgəsinin Jermuk şəhərində "Mənim şərəfim var" blokunun sakinləri ilə görüşü zamanı Paşinyanın ləyaqətinin olmadığını deyib:**

"Əgər o qədər ləyaqət sahibi olsaydı, intihar edəcəkdi. And içirəm, mən baş komandan olanda bu vəziyyətdə olsaydım, özümü öldürərdim. Bu gün 6 aldılar, sabah 16 alacaqlar, ertəsi gün 36 alacaqlar, bundan sonra nə olacaq?"- deyə o, Paşinyan hakimiyyətinə narazılığını bildirib.

**Politoloq Natiq Mirinin "Şərq"ə açıqlamasına görə, Ermənistanda şərəf və ləyaqətdən danışacaq ən sonuncu adam məhz Sarkisyanın özüdür:** "Qarşıdakı seçkilərdə Paşinyanın əsas rəqibi iki blokdur və hər iki blokda "Qarabağ klanı" namizədlərinin təmsil olunduğu şəxslər var: Robert Koçaryan və Serj Sarkisyan. Sarkisyan seçkilərdə birbaşa özü iştirak etməsə də, onun rəhbərlik etdiyi partiya seçkilərə qatılıb. Onun əsas məqsədi Paşinyanı ictimaiyyətin gözündən salmaqdır.

Əslində son günlər bu proses daha da sürətlənib, hətta ictimai rəydə bunun təsirlərini də müşahidə edirik. Aparılan sorğular da göstərir ki, Paşinyanla "Qarabağ klanı"nın arasındakı səs fərqi getdikcə azalır. Ona görə də daha kəskin və sərt ritorikaların şahidi oluruq. Fikrimcə, bu, seçki gününə qədər davam edəcək.

Sarkisyanın şərəf və ləyaqətdən danışması absurd olduğu qədər gülməlidir. Söhbət ondan getmir ki, Paşinyan şərəflidir. Ümumiyyətlə, ermənilərdə şərəf və ləyaqət adlı dəyər yoxdur".

N.Mirinin fikrincə, əslində Paşinyanın məğlub olduğu 44 günlük Vətən müharibəsinin əsas səbəbkarı məhz Koçaryan və Sarkisyandır: "Çünki Ermənistanda ordunu quran, "məğlubedilməz" vəziyyətə gətirib çıxaran bu şəxslərdir. Ordu qısa bir müddətə qurulacaq məfhum deyil. Ona görə də məğlub ordu Sarkisyanla Koçaryanın qurduğudur, məğlub olan da məhz özləridir. Əslində başına güllə sıxacaq adam Paşinyan yox, Sarkisyanın özüdür".

**Yeganə**

# Paşinyan son 3 ayda 10 faizə qədər səs itirib

## "Koçaryanın onu haqlamasının başlıca səbəbi Zəngəzurda yaşananlardır"

**Bu gündən Ermənistanda rəsmən seçkiqabağı təşviqat kampaniyası başlayıb. Kampaniya iyunun 18-dək davam edəcək, bundan sonra "sükut günü" olacaq. Qeyd edək ki, erkən parlament seçkiləri iyunun 20-də keçiriləcək.**

Seçkilərdə iştirak etmək üçün rekord sayda - 23 partiya və 4 blok qeydiyyatdan keçib. Sabiq prezidentlər Levon Ter-Petrosyan (Erməni Milli Konqresi), Robert Koçaryan ("Ermənistan" bloku), Serj Sarkisyanın lideri olduğu Respublika Partiyası ("Vətən" partiyası ilə birlikdə "Şərəfim var" bloku) seçkilərə qatılacaq.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən siyasi-şərhçi Asif Nərimanlı bildirib ki, 20 iyuna qədər indiyə kimi müşahidə etdiyimiz toqquşmaların iki qatını görə biləcəyik.** O qeyd edib ki, xüsusilə "Gallup"un son sorğusunun nəticələri bu gözləntini artırır: "Gallup"un mart ayında keçirdiyi sorğuda Paşinyanın rəhbərlik etdiyi "Mənim addımım" partiyası respondentlərin 33,1 faiz səsini toplamışdı, Koçaryan dördüncü yerdə idi. Mayın son günlərində "Mənim addımım" partiyasının səsi 22,9 faizə düşdü, Koçaryanın rəhbərlik etdiyi "Ermənistan" blokunun səsi 17,5 faizə yüksəldi. Son sorğuda Paşinyan yerində sayır (22,9 faiz), Koçaryan isə irəliləyirdi (20,6 faiz)".

Siyasi analitik Nikol Paşinyanın son aylarda səs itirməsinə də aydınlıq gətirib: "Paşinyanın son üç ayda səs itirməsinin əsas səbəblərindən biri



### *"Nikol təslim olmayacaq və seçkiqabağı iki istiqamətdə hərəkət edəcəyi gözlənilləndir"*

Ermənistanın "hərbi əsir" adlandırdığı erməni diversantları qaytara bilməməsidir. İkinci səbəb Laçın-Gorus sərhədində baş verən gərginlikdir. Sərhədlərin demarkasiyası ilə bağlı yeni sənədin imzalanacağı xəbərindən sonra hakimiyyətin "yeni xəyanətə" hazırlaşdığı üzərində güclənən ictimai rəy də səbəblər sırasındadır. Və sosial-iqtisadi vəziyyət də səbəblərdən biridir. Çünki sorğuda iştirak edən respondentlərin 50,5 faizi yaşayış səviyyəsini pis, 16,4 faizi çox pis qiymətləndirib. Bu amillər səslərin iqtidar düşərgəsindən müxalifət düşərgəsinə keçidinə şərait yaradır, lakin "niyə Koçaryan önə çıxdı" sualı əsasdır. Bilirik ki, mart ayında keçirilən sorğuda Koçaryanın seçkiyə hansı formada gedəcəyi müəmmalı idi. May ayında isə "Daşnaksütyun" və "Dirçələn Ermənistan" partiyalarının birləşməsi ilə yaradılan "Ermənistan" blokuna rəhbərlik edəcəyini bildirdi. Seçki yaxınlaşdıqca, səsvermədə iştirak etmək istəyənlərin sayının artması və qərarsız qalanların seçim etməsidir. Mövcud hakimiyyətdən uzaqlaşan elektoratın yaddaşında Serj Sarkisyanın dövründəki vəziyyətin Koçaryan hakimiyyəti dövründəkindən daha oyanıq olmasıdır. Ən əsası müharibədəki məğlubiyyətdən və sərhəd hadisələrindən sonra erməni cəmiyyətində millətçi qanadın "xilas yolu" olması rəyinin güclənməsidir. Koçaryan müharibədən sonra "Vətənin xilası" hərəkatında təmsil olunan daşnakları və sərhəd böhranının yarandığı Sünik (Zəngəzur) vilayətinin keçmiş qubernatoru Vahe Hakobyanın yaratdığı "Dirçələn Ermənistan" partiyasını yanına almaqla ağıllı oynadı, hərçənd, bu ağılın arxasında Moskvanın olduğu şübhəsizdir".

**A.Nərimanlı əlavə edib ki, Paşinyanın son üç ayda 10 faizə qədər səs itirməsi və Koçaryanın onu haqlamasının başlıca səbəbi Zəngəzurda yaşananlardır:** "Hesab edirəm ki, Ermənistanda seçkilərin əsas cəbhəsi də bu bölgə olacaq. Koçaryanın Zəngəzura gəlməsi və seçki kampaniyasına buradan başlamaq qərarı da təsadüfi deyil. Nikol təslim olmayacaq və seçkiqabağı iki istiqamətdə hərəkət edəcəyi gözlənilləndir: "Birincisi, seçki kampaniyasında bütün resurslarını rəqib(lər)inə qarşı səfərbər edəcək. İkincisi, sərhəd xətti üzrə təxribat hücumlarını intensivləşdirə bilər. Sərhəddəki son təxribatlar da bu ehtimalları gücləndirir. Ermənistanda seçkiöncəsi dövrdə vacib məqamlardan biri də Azərbaycanın prosesinə təsir imkanlarıdır. Sərhəddə baş verənlər Paşinyan hakimiyyətinin səs itirməsi ilə nəticələndi, indi Bakı yenə Zəngəzurdan İrəvandakı seçkini yönləndirə bilər".

**Aynurə Pənahqızı**

# Ermənilər hələ sakit durmayacaqlar

## Revanşist qüvvələr bölgəni gərginlikdə saxlamağa maraqlıdırlar



*"İndi daha çox Zəngəzur dəhlizi və Qarabağda yaşamaq istəyən ermənilərin vətəndaşlıq məsələləri müzakirə mövzusudur"*

Beynəlxalq sorğu mərkəzinin Ermənistanda növbəti dəfə keçirdiyi sorğu maraqlı məqamları ortaya qoyub. Məlum olub ki, "Ermənistanın üzləşdiyi ən kəskin problem nədir" sualına respondentlərin sadəcə 0,7 faizi "Qarabağın statusu" cavabını veriblər. Ermənilərin böyük əksəriyyəti onları düşündürən əsas məsələnin iqtisadi vəziyyət və ölkənin gələcək durumu ilə bağlı olduğunu vurğulayıblar.

Məlumdur ki, seçki öncəsi Ermənistan hakimiyyətinin və müxalifətinin, ələlxüsus revanşist qüvvələrin gündəmə gətirdiyi əsas tezis "Qarabağın status"dur. Siyasilər erməni xalqını düşündürən ən mühüm məsələnin "status" olduğunu iddia etsələr də, görünən odur ki, ermənilərin yeganə dərdi çörəkdir.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, reallıq hissi olan hər kəs çox gözəl anlayır ki, "Dağlıq Qarabağ problemi" adında məsələ tarixə qovuşub.** Politoloqun sözlərinə görə, bu reallığı erməni siyasətçiləri, müxalifəti və hazırkı rəhbərlikdə təmsil olunan qüvvələr də yaxşı dərk edirlər: "44 günlük müharibədə Azərbaycan Ordusu "status-kvo"nu 180 dərəcə dəyişdirdi. İndi daha çox Zəngəzur dəhlizi və Qarabağda yaşamaq istəyən ermənilərin vətəndaşlıq məsələləri müzakirə mövzusudur. Ötən gün sosial şəbəkə vasitəsilə Paşinyanın seçkilərlə bağlı statusunun altında yazılan rəyləri araşdırarkən bir daha əmin oldum ki, erməni cəmiyyətini və sadə xalqı ilk növbədə ölkənin gələcəyi və iqtisadi sıxıntıları və bu durumdan çıxmaq yolları düşündürür. Son 30 ildə Ermənistanda qurulan terror dövləti ölkəni tam iflas vəziyyətinə gətirib çıxartdığından xalq Paşinyandan daha çox dövlətin məhvə sürüklənməsinin qarşısını almaq xahişləri edir. Lakin Ermənistana spesifik olan və uzun zaman içərisində yoğrulduğu riyakarlıq elementlərindən qısa müddətdə qurtulması elə də asan görünməsin".

**Partiya təmsilçisi qeyd edib ki, hələ bir müddət Qarabağ barədə çağırışlar olacaq:** "Ermənilər bölgəni gərginlikdə saxlamaq üçün bu kartdan yararlanmağa çalışacaqlar. Bölgədə maraqları olan xarici təcavüzkar qüvvələrin istəyi ilə də bu addımı ata bilərlər. Son zamanlar Fransa lideri Makronun məsuliyyətsiz davranışları bu sayaq sayıqlamalara rəvac vermək üçün əsas ola bilər. Ermənistanda seçkilərə sayılı günlər qalıb. Hakimiyyət uğrunda mübarizə daha da şiddətlənib. Müxalifət daha çox Qarabağ kartı ilə Paşinyanı sıxmağa çalışır".

**İsmayıl Qocayev**

# Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı Pakistana gedib



**Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı kontr-admiral Sübhan Bəkirovun rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasına səfərə gedib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan və Pakistan HDQ-i arasında əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə ediləcək, əməkdaşlığın müxtəlif sahələrinə dair brifinqlər veriləcək.

# Ermənistan XİN tam başsız qaldı

## Bütün müavinlər istefa ərizəsi yazıblar



**Ermənistan xarici işlər nazirinin bütün müavinləri istefa ərizəsi təqdim ediblər.**

Bu barədə nazirliyin mətbuat xidməti bildirib. Açıqlamaya görə, ərizələr ötən həftə müvafiq şəkildə baş nazir dəftərxanasına ötürülüb.

*Xatırladaq ki, xarici işlər naziri Ara Ayvazyan, həmçinin müavini Qagik Ğalaçyan və nazirlik sözçüsü Anna Nağdalyan mayın 27-də istefa veriblər.*

# Təkbətək görüş

## Bayden Ərdoğanla Qarabağ məsələsini müzakirə edəcək



**ABŞ prezidenti Cozef Bayden iyunun 14-də NATO sammitində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Qarabağ məsələsini müzakirə edəcək.**

Bu barədə Cozef Baydenin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan jurnalistlərə bildirib.

O, qeyd edib ki, dövlət başçılarının görüşündə Qarabağ məsələsi ilə yanaşı, həmçinin Suriya, İran və Əfqanıstan mövzuları diqqət mərkəzində olacaq.

Baydenlə Ərdoğanın təkbətək görüşünün detallarını açıqlayan Ağ Ev rəsmisi "iki liderin Aralıq dənizinin şərqi, Suriya, İran, Qarabağ kimi regional məsələlərə dair geniş və əhatəli gündəliyi olacaq", - deyə bildirib.

Görüş əsnasında Türkiyənin Əfqanıstandakı danışıqlarda və diplomatiyada oynayacağı rolunun da gündəmdə olacağını qeyd edən Sallivan görüşdə iki ölkənin fərqli mövzuların da gündəmə gələcəyini deyib.

"Prezident Bayden prezident Ərdoğanı çox yaxşı tanıyır və bu iki şəxs bir-birləri ilə çox vaxt keçiriblər. Bayden və Ərdoğan bu fürsətdən istifadə edərək, münasibətlərinin bütün aspektlərini nəzərdən keçirməyi səbirsizliklə gözləyirlər", - Ceyk Sallivan vurğulayıb. ("report")

Qeyd edək ki, öz növbəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da daha əvvəl NATO sammitində ABŞ prezidenti Cozef Baydenlə müzakirəsini planlaşdırdığı mövzunu açıqlayıb. Türkiyə lideri bildirib ki, amerikalı həmkarı ilə ABŞ və Türkiyənin münasibətlərindəki gərginliyi də müzakirə etməyi planlaşdırır.

"Soruşacam ki, bizim münasibətlərimiz niyə belə gərgin oldu?", - Türkiyə rəhbəri jurnalistlərə açıqlamasında deyib.

# Fazil Mustafa qisasa qisas deyir

## "Bizim partizanlar da ermənilər üçün mina süfrələri təşkil etməlidir

## Pənah Hüseyn: "Əsas addım təxribatların mərkəzi olan Xankəndidəki terrorçu rejimi aradan götürməkdir"





"Mina məsələsinə münasibətdə bizim rəsmi təbliğatın daha doğru istiqamətdə aparılmasının vacibliyini düşünürəm. Fikrimcə, Azərbaycanın "Ermənistan minalanmış ərazilərin xəritəsini vermir" deməsi elə "Ermənistan işğal olunmuş ərazilərimizdən çıxmır" deməsi kimi bir şeydir. Yəni 30 ilə yaxın təkrarlanacaq və nəticəsi olmayacaq bir tələbdir. Necə ki, sonda savaş və diplomatiya yolu ilə düşməni ərazilərdən çıxartmaqdan başqa hansısa bir tələb, beynəlxalq təşkilatlardan hansısa bir gözlənti işə yaramadı".

**Bu fikirləri, millət vəkili Fazil Mustafa feysbuk səhifəsində qeyd edib.**

Deputat mövcud vəziyyətə uyğun maraqlı təkliflərlə çıxış edib və bildirib ki, yerli və yersiz peşəkar sakinlərdən təşkil olunan partizan qruplarının yaranmasına dövlət əngəl yaratmamalıdır: "44 günlük savaşımız göstərdi ki, adsız qəhrəman olmağa hazır minlərlə oğullarımız var. Bununla belə, dövlət onların göstərəcəyi fəaliyyətin məsuliyyətini də daşımamalıdır.

Bu partizan qrupları istər Qarabağda ermənilərin yaşadığı ərazilərdə, istər də Ermənistan ərazisində kütləvi şəkildə ermənilər üçün məlum üsullarla mina süfrəsi təşkil etməlidirlər.

Ermənistanı və onun himayədarlarını ancaq bu yolla durdurmaq olar. Digər tərəfdən, həmin qruplar ermənilərin ərazimizə soxulan təxribat qruplarını məhv etməklə məşğul olmalıdırlar.

Hər dəfə ermənilər mina partlayışının dadını gördüyündə, bizim onlar kimi sevinməyimizə gərək qalmayacaq. Biz bu kimi fəaliyyətləri rəsmi şəkildə pisləyəcəyik və bu adsız qəhrəmanlar da buna görə dövlətdən qətiyyən inciməyəcəklər.

Bu zaman ruslar da fakt qarşısında qalacaqlar. Ermənistanın cavabdehlik daşımadığı qanunsuz birləşmələr varsa, o halda bizim də cavabdehlik daşımadığımız qanunsuz birləşmələr avtomatik olaraq mövcud olmalıdır. Elə işlər var ki, onu rəsmi hərbi strukturların etməsi arzuolunan deyil".

**Sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn millət vəkilinin təklifi barədə fikirlərini "Şərq"lə bölüşüb:** "Düşünürəm ki, hazırda atılacaq əsas addım təxribatların mərkəzi olan Xankəndi ətrafında 3200 kvadrat kilometrlik ərazidəki terrorçu rejimin aradan götürülməsidir. Həmçinin Ermənistanın işğalçı qoşunlarındakı bütün qüvvələri ərazilərimizdən çıxarmalıyıq. Hazırda Azərbaycan ərazisində dövlət sərhədlərinin etibarlı qorunması şərti ilə fəaliyyət göstərilir. Daha bu cür təxribatlar demək olar ki, olmayacaq və partizan müharibəsinə də ehtiyac qalmayacaq. Fikrimcə, "partizan qrupları" metaforik bir ifadədir. Dövlət hazırda bu təxribatların mənbəyi olan Qarabağ vilayətindəki terrorçu rejimi məhv etməlidir".

**Yeganə Bayramova**

# 10 gün ərzində təxribatlar ola bilər

## Ermənistana dəstək verən ölkələr də siyasi şok yaşayırlar

Ermənistan Prezidenti Armen Sarkisyan Qazaxıstandakı erməni icmasının üzvləri ilə görüşüb və sərsəm fikirlər səsləndirib. Prezident deyib ki, "Qarabağda müharibə bitməyib, sadəcə atəşkəs imzalanıb". Sarkisyanın sözlərinə görə, müharibə hələ bitməyib, çünki sülh razılaşması yoxdur:



”Məlum deyil ”arsax”ın statusu necə olacaq, danışıqlar nə vaxt başlayacaq və necə gedəcək, Azərbaycan-Ermənistan sərhədində hadisələr necə inkişaf edəcək”. Halbuki, Azərbaycan tərəfi rəsmi şəkildə dəfələrlə bəyan edib ki, artıq müharibə bitib. Azərbaycan güc və siyasi iradə hesabına öz torpaqlarını düşmən işğalından azad edib və tarixi ədalət bərpa olunub. Hazırda Qarabağda böyük tikinti bumu yaşanır, yenidənqurma işləri görülür. Azərbaycan dövləti sülh şəraitində Qarabağın əvvəlki şöhrətini özünə qaytarmaq üçün ciddi fəaliyyət sərgiləyir. Lakin bəzi qüvvələr bunu anlaya-anlaya qəsdən münaqişənin bitmədiyini iddia edirlər. Düşünürlər ki, ”münaqişə həll olunmayıb” deməklə rəsmi Bakını qıcıqlandıraraq təxribata çəkə bilərlər. Mayın 10-da Naxçıvana səfəri çərçivəsində Prezident İlham Əliyev bir daha həmin qüvvələrə sərt xəbərdarlıq ünvanladı: ”Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bu münaqişəni təkbaşına həll edib, həm döyüş meydanında və ondan sonra masa arxasında... Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Münaqişə öz həllini tapıb və hesab edirəm ki, bu məsələyə qayıtmaq əbəsdir”. Dövlət başçısı Ermənistandakı revanşistlərə də mesaj göndərərək istənilən cəhdin qarşısının alınacağını, təxribatçıların yerindəcə məhv ediləcəyini bildirib.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə bildirib ki, Armen Sarkisyanın bu cür sərsəmləməsi gözlənilən idi. Professorun sözlərinə görə, Ermənistan tərəfi İkinci Qarabağ müharibəsində aldıqları ağır məğlubiyyətin şokundan təzə-təzə ayılır:** ”Ermənistanın siyasi rəhbərliyi yüz il ərzində beyinlərinə yeridilən miflərlə, əsatirlərlə dolanırdılar. Azərbaycan Ordusu ”erməni mifini” darmadağın etdi. Ermənistana dəstək verən ölkələr də siyasi şok yaşadılar. Aldıqları travmadan ayılan siyasilərin revanşist açıqlamalar verməsi anlaşılandır. Amma Sarkisyanın Qarabağın ”statusu” barədə dediklərinin heç bir əsası yoxdur. Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, rəsmi Bakı ”münaqişəni”, ”Dağlıq Qarabağ” terminini və ”status” məsələsini birdəfəlik gündəmdən çıxarıb. Ərazi bütövlüyümüzü bərpa etmişik. Düzdür, Rusiya sülhməramlıları özlərini ərazi bütövlüyümüzə pərçim ediblər. Lakin rəsmi Bakı bu məsələdə siyasi səbr nümayiş etdirir, mövcud şərtləri nəzərə alır. Həm də yekun sülh sazişi olmadığına görə, bu cür sərsəm çıxışların gündəmə gəlməsi mümkündür”.

**C.Nuriyev vurğulayıb ki, Armen Sarkisyanın Paşinyana qarşı mübarizəsi, onu qəbul etmədiyi bəllidir:** ”Baxmayaraq ki, Sarkisyan özü Böyük Britaniyanın Ermənistandakı ”nümayəndəsi” sayılır, amma nə zaman ingilislərlə fransızlar arasında ziddiyyətlər yaransa, bu kimi açıqlamalar da gündəmə gəlir. Sarkisyan çalışacaq ki, Fransanın dəstəklədiyi Paşinyanın seçkidə qalib olmasına maneçilik törətsin. Bu, həm də Rusiyaya verilən siyasi mesajdır. Fransadan sonra Rusiya və İran açıq şəkildə Ermənistanı dəstəkləyir. Hər üç ölkənin Cənubi Qafqazda öz maraqları var. Bu üç dövlət Türkiyə və Azərbaycana da qısqanclıqla yanaşır. Sirr deyil ki, bu güclər bitmiş münaqişəni yenidən reanimasiyadan çıxartmaq niyyətindədirlər. Azərbaycan rəhbərliyinin düzgün siyasətinə və mövqeyinə görə, hələlik qərəzli qüvvələr öz istəklərinə nail ola bilmirlər. Ermənilər müxtəlif təhrikedici addımları ilə bizi qıcıqlandırmağa, öz mövqeyimizdən daşındırmağa çalışırlar. Şübhəsiz, bu cəhdlər nəticə verməyəcək. Lakin ermənilərin Xocavənd ətrafında səngər qazması, II Qareginin Qarabağa gələrək erməniləri təhrik etməsi, rus sülhməramlılarının göz yumması, Sarkisyanın və Koçaryanın sərsəm çıxışları göstərir ki, Ermənistan tərəfi 10 gün ərzində ciddi təxribat törətmək niyyətindədir. Qətiyyən düşmənin təxribatına uymamalıyıq. Azərbaycan dövlətinin indiki mövqeyini dəstəkləmək lazımdır. Çünki ən doğru-düzgün yolu tutmuşuq”.

**İsmayıl Qocayev**

## “Bütün dünya üçün ən zavallı ölkəyə çevriləcəyik”

### Levon Ter-Petrosyan: “Qarabağ məsələsində Ermənistanın müttəfiqi yoxdur”



**“Dağlıq Qarabağ məsələsində Ermənistanın müttəfiqi yoxdur və bundan çıxış etmək lazımdır”.**

APA-nın ”Sputnik Atmenia” saytına istinadən verdiyi məlumata görə, bunu Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyan rəhbəri olduğu ”Erməni Milli Konqresi” partiyasının növbədənkənar parlament seçkiləri ilə bağlı seçkiqabağı proqramının təqdimatında deyib.

Onun sözlərinə görə, praktiki olaraq ölkənin bütün siyasi partiyaları Dağlıq Qarabağ münaqişəsində Ermənistanın müttəfiqi olmadığını anlaya bilmir və insanlar hələ də gah Amerika, gah İran, gah da digər hansısa istiqamətlərə ümidlə baxmağa davan edirlər.

”Biz eyni səhvləri təkrarlasaq, bütün dünya üçün ən zavallı ölkəyə çevriləcəyik”, - deyə o vurğulayıb.

*Eks-prezident bildirib ki, seçki ərəfəsində Ermənistanda hansı yolla olur-olsun hakimiyyətə gəlmək istəyən iki qütb formalaşıb:* ”Hər iki tərəf böyük maliyyə, inzibati və kriminal resurslara malikdir və məqsədinə çatmaq üçün istilən addımı atacaq. Bu situasiyanın yaratdığı təhlükələr haqqında danışmaq istəmirəm”.

## Türkiyə və Fransa XİN başçıları görüşüb



**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Fransa xarici işlər naziri Jan İv Lö Drianla görüşüb.**

APA-nın xəbərinə görə, bu barədə Türkiyə XİN başçısı ”Twitter”də bildirib.

M. Çavuşoğlunun Parisə səfəri çərçivəsində baş tutan görüşdə Türkiyə-Fransa əlaqələri, regional və beynəlxalq vəziyyət müzakirə olunub.

”Fransa ilə münasibətlərimizi qarşılıqlı hörmət prinsipi əsasında gücləndirməyi hədəfləyirik”, - deyə Çavuşoğlu qeyd edib.

# “Rafael Cəbrayılovun halına acıyıram”

## Razi Nurullayev: “Aldadılıb pulunu itirənlərə də acıyıram, insan 1 manatını itirəndə pis olur”

"Şərur-İnşaat" tikinti şirkətinin rəhbəri İsfəndiyar Axundov (Şərurlu İsfəndiyar) Milli Məclisin sabiq deputatı Rafael Cəbrayılovun cinayət işində adının zərərçəkmiş şəxslərin siyahısında olmasına münasibət bildirib. Bununla bağlı "Report"a açıqlama verən İsfəndiyar Axundov deyib:



”Gəldi, 200 min pul götürdü. Dedi ki, deputatların köhnə rəisi, Milli Məclisin köhnə sədri Oqtay müəllimlə ev tikirəm və bir-iki aya verəcəm. Apardı, göstərdi və dedi Novxanı yolunun üstündə tikirik evi. Sonra da gəldi pulu aldı və getdi. Mən də borc verdim, qaytarmadı və sonra da başladı aldatmağa. Həmin borc hələ illər əvvəl, pulların ölmədiyi və diri olduğu vaxtda (devalvasiyadan əvvəl - red) verildi, sadəcə, 40 mini qaytardı, 160 min isə qaldı. O zaman hələ dollar qalxmamışdı”.

Şərurlu İsfəndiyar R.Cəbrayılova inandığı üçün borc verdiyini bildirib: ”Vallah, nə bilim, inandım. Adam var borca milyon da verir. Verməsən də olmur axı... Baxırdın ki, qəşəng qalstuk, kostyum geyinib və savadlı adamdır. Özünü çox yaxşı, mədəni, tərbiyəli aparırdı. Kostyumu var, papağı var, deyirsən kişidir də, inandım verdim. Nə biləsən ki, bu, belə olacaq”.

**Sabiq deputatın əməlləri barədə ”Şərq”ə danışan millət vəkili Razi Nurullayev bildirib ki, R.Cəbrayılovla heç vaxt tanışlığı olmayıb:** ”Oqtay müəllimlə isə parlamentdə salamlaşırıq. Düşünürəm ki, məsələnin bu şəkildə şişirdilməsi qərəzlidir. R.Cəbrayılova görə zərərçəkən insanlar var, onları başa düşürəm, haqlarıdır, ona görə də tələb edirlər. Amma başqa adamlar kimlərəsə ziyan vurmaq, qisas almaq üçün mövzunu şişirdir. Heç bir məmur istəməzdi ki, belə vəziyyətə düşsün.

R.Cəbrayılov mandatını, biznesini itirib, evini satıb, çox çətin bir vəziyyətə düşüb. Bir sözlə, bu insan artıq çöküb.

Belə çıxır ki, onu öldürmək istəyirlər. Bir adamın üzərinə bu qədər getmək nə dərəcədə düzgündür? Mənim də R.Cəbrayılov haqqında pis danışmağım düzgün olmaz, bunu özümə yaraşdırmaram.

Artıq bu hadisələr baş verib, məhkəmə prosesi keçirilib, amma yenə də mövzunu məqsədli şəkildə gündəmə gətirirlər.

Açığı deyim ki, R.Cəbrayılovun halına acıyıram. Təbii ki, aldadılıb pulunu itirənlərə də acıyıram, insan 1 manatını itirəndə pis olur. Lakin olan olub, kim kömək edə bilirsə etsin, problem həllini tapsın və hər iki tərəf qalib gəlsin. Nə R.Cəbrayılov həyatını itirmək dərəcəsinə gəlsin, nə də başqaları pulundan olsun. Məsələnin belə şişirdilməsi zərərçəkənlərin maraqlarına xidmət etmir və başqaları məqsədli şəkildə belə ajiotaj yaradırlar”.

**Yeganə Bayramova**

# Vətən müharibəsi şəhidi Ağdaşda dəfn edilib



## Cənazənin üzərindəki bayraq şəhidin qardaşına təqdim edilib



**Vətən müharibəsində şəhid olan Əkbər Məsimov anadan olduğu Ağdaş rayonunda dəfn olunub.**

APA-nın yerli bürosunun xəbərinə görə, şəhid hərbçinin nəşi Ağdaşın Qaradeyin kənd qəbiristanlığında torpağa tapşırılıb.

Şəhidin dəfn mərasimində ailə üzvləri, yaxınları, hərbçilər, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş rayon şöbəsinin, rayon İcra hakimiyyətinin rəhbər şəxsləri, ictimaiyyət nümayəndələri, qazilər, gənclər iştirak edib.

Mərasimdə şəhidin ruhuna dualar oxunub, "Şəhidlər ölməz, Vətən bölünməz!", "Qarabağ bizimdir, bizim olacaq!", "Ən böyük əsgər, bizim əsgər!" şüarları səsləndirilib.

Polkovnik Rasim Manafov cənazənin üzərindəki Azərbaycan bayrağını şəhidin qardaşı Elnur Məsimova təqdim edib.

Şəhidin nəşi hərbi orkestrin müşayiəti ilə torpağa tapşırılıb, yaylım atəşi açılıb.

*Qeyd edək ki, Məsimov Əkbər Yunis oğlu 5 oktyabr 1994-cü ildə Ağdaş rayonunun Qaradeyin kəndində anadan olub. Azərbaycan Ordusunda 4 il müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət edib.*

*O, ötən il mayın 10-da nişanlanıb. Oktyabrın 5-də toy etməyə hazırlaşırmış. Sonuncu dəfə sentyabrın 27-də ailə üzvləri ilə əlaqə saxlayıb, döyüşə yollandığını bildirib. Həmin gündən sonra ailə üzvləri onunla əlaqə saxlaya bilməyiblər. Əkbər Məsimov Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşüb.*

*Hərbi Prokurorluğun bu gün yaydığı məlumata görə, Məsimov Əkbər Yunis oğlunun meyiti tapılaraq, şəxsiyyəti müəyyən edilməklə aidiyyəti üzrə verilməsi üçün zəruri tədbirlərin görülməsi təmin olunub.*



# Bakı və İrəvanın razılığı olmalıdır

### Rusiya XİN: Beynəlxalq təşkilatların danışıqlar prosesində iştirakı yalnız bu halda mümkündür

**Rusiya xarici işlər naziri Sergey Lavrov fransalı və almaniyalı həmkarları Jan iv Lö Drian və Hayko Maasla telefonla danışıb.**

APA-nın Moskva müxbirinin Rusiya XİN mətbuat xidmətinə istinadən verdiyi məlumatına görə, xarici siyasət idarələrinin rəhbərləri Azərbaycan - Ermənistan sərhədindəki və Dağlıq Qarabağ ətrafındakı vəziyyəti, həmçinin, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 9 noyabr 2020-ci il tarixli və 11 yanvar tarixli bəyanatlarının müddəalarının yerinə yetirilməsinin gedişaatını müzakirə ediblər.

Atəşkəs rejiminə ciddi riayət olunmasının, eləcə də ortaya çıxan fikir ayrılıqlarının siyasi və diplomatik yolla həllinin vacibliyi vurğulanıb.

Nazirlər ATƏT-in Minsk qrupunun Azərbaycan və Ermənistan arasında danışıqlar prosesindəki rolunu təsdiqləyiblər. Rusiya tərəfindən qeyd edilib ki, beynəlxalq təşkilatların danışıqlar prosesində hər hansı bir iştirakı yalnız Bakı və İrəvanın razılığı ilə mümkündür.

# Laçın dəhlizini dərhal bağlamalıyıq

### Düşməndən xəritə, humanist davranış gözləmək yersizdir

Dörd gün öncə ikisi jurnalist və biri dövlət qurumu əməkdaşı olmaqla, üç vətəndaşımız işğaldan azad olunmuş Kəlbəcər rayonunda erməni terrorçuları tərəfindən basdırılmış minaya düşərək şəhid oldular. Şübhəsiz, bu dəhşətli hadisə Ermənistan hərbi-siyasi rəhbərliyinin Azərbaycan xalqına qarşı növbəti cinayəti və terror əməlidir. Ermənistan bu cür çirkin əməlləri ilə regionda sülhün bərqərar olmasına ciddi əngəllər yaradır.

Düşmən daha çox insanın həlak olması üçün hərbi əhəmiyyəti olmayan ərazilərimizi də minalayıb. Məqsəd mülki insanların həlak olması, ağır yaralanmasıdır. Azərbaycanın qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra işğaldan azad olunmuş ərazilərdə 140 nəfərdən çox insan erməni işğalçılar tərəfindən basdırılmış minalara düşüb və 27 nəfər həlak olub. Bütün bunlara görə məsuliyyət Ermənistanın cinayətkar hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan tərəfi uzun müddətdir ki, Ermənistanın minalanmış ərazilərinin xəritələrini təqdim etməməsi və bunun acı nəticələr verəcəyi ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırır, bu məsələdə Ermənistana təzyiq göstərməyə çağırır. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət Ermənistanın bu cinayət əməllərinə göz yumur. Bu da erməni tərəfinin növbəti cinayətlər törətməsinə rəvac verir. Bu arada Baş Prokurorluq Kəlbəcərdə jurnalistlərin həlak olduğu hadisə ilə bağlı daha bir məlumat yayıb. Vurğulanıb ki, bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində hadisənin baş verməsi ilə əlaqədar əsassız və dəqiqləşdirilməmiş məlumatlar yayılmaqdadır: "Aparılmış ilkin istintaqla müəyyən edilib ki, hadisənin baş verdiyi əraziyə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəzarəti tam təmin olunduğundan, işğaldan azad olunduqdan sonra ora düşmən təxribat qruplarının sızması və orada mina basdırması istisna edilir. Erməni qanunsuz silahlı birləşmələri işğal zamanı qeyd edilən yoldan döyüş mövqelərinin təminat yolu kimi istifadə ediblər. Kəlbəcər rayonunu tərk edən zaman isə geri çəkildikləri həmin əraziləri minalayıblar. Cinayət işi üzrə istintaq davam edir, gedişatı barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək".

Hadisədən sonra əcnəbi siyasətçilər, beynəlxalq qurumlar da minalanmış ərazilərin xəritəsi ilə bağlı Ermənistana müraciət ediblər. Fransalı deputat xanım Frederik Duma bildirib ki, Fransa və beynəlxalq ictimaiyyət Ermənistandan minalanmış ərazilərin xəritəsini verməsini tələb etməlidir: "İstər Ermənistanda, istərsə də Azərbaycanda mülki şəxslər münaqişə girovu olmamalıdır. Hər iki tərəf beynəlxalq hüquqa əməl etməlidir". Rusiyalı politoloq, tarix elmləri namizədi Anton Bredixin deyib ki, Yerevanın mina xəritələrini verməsi üçün KTMT-nin potensialından istifadə edilməlidir: "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının potensialından mümkün qədər çox istifadə etmək lazımdır. Yerevan məhz bu təşkilata minalanmış ərazilərin xəritələrini təqdim edəcək". Alim qeyd edib ki, bu gün Qarabağ bütün Cənubi Qafqaz üçün münasibətlərin yenidən formatlanma nöqtəsidir. Onun sözlərinə görə, orada sülh olacaqsa, bütün bölgədə sülh olacaq, yenidən gərginlik başlayacaqsa, genişmiqyaslı müharibə başlayacaq. Bredixin insanların dinc həyata qayıtmalı olduğunu və bunun üçün yalnız Bakı deyil, Yerevanın da maksimum səy göstərməsini vurğulayıb. Lakin onun sözlərinə görə, azad edilmiş ərazilərdə mina təhlükəsi davam etdikcə, qaçqınlar öz evlərinə dönə bilməyəcəklər. Rusiyalı jurnalist, televiziya aparıcısı və ictimai xadim Maksim Şevçenko bildirib ki, azərbaycanlı jurnalistlərin minaya düşməsi diversiya və terror aktıdır: "Bir halda ki jurnalistlər icazə verilən ərazidə hərəkət edərkən minaya düşüblər, deməli, burada minanın quraşdırılması diversiya və terror aktıdır. Ermənilərin mina xəritələrini verməkdən imtina etməsi biabırçılıqdır. Bu, Azərbaycanın əsas tələblərindən biri olmalıdır". Ekspertin fikrincə, Qarabağda minalar nizamsız şəkildə quraşdırılıb: "Azərbaycanın şəhər və kəndlərində ermənilərin özlərini necə apardıqlarına, Xirosima kimi yerlə bir edilmiş Ağdamın peyzajına, bir vaxtlar işğal altında olmuş ərazilərdəki xaosa nəzər yetirdikdə bu, aydın görünür. Azərbaycan hərbi cinayətlərin nəticələrinin əks olunduğu beynəlxalq "Ağ kitab" hazırlamalıdır. Məsələn, nasistlərin cinayətlərinin, İraq müharibəsinin nəticələrinin əks olunduğu "Ağ kitab"lar var. Hesab edirəm ki, Qarabağın işğalının nəticələri ilə bağlı da belə bir "Ağ kitab" hazırlanmalıdır".



### "Azərbaycan öz suverenliyini və vətəndaşlarının təhlükəsizliyini konkret və radikal addımlarla təmin etməlidir"

**Ağ Partiya sədri Tural Abbaslı "Şərq"ə açıqlamasında vurğulayıb ki, dövlət və millət olaraq başa düşməliyik ki, ermənilər normal danışıqdan, diplomatik dildən, razılaşmadan anlamırlar. Partiya rəhbərinin sözlərinə görə, erməni dövləti, elə xalqın özü də xaraktercə terrorçudur:** "Ermənilər tarix boyu terrora, soyqırıma, kütləvi qətllərə, cinayətlərə meyilli olublar. Biz daha çox hərbçimiz, mülki şəxsimiz həyatını itirməsin, işğaldan azad edilmiş ərazilərdə normal həyat təmin olunsun deyə ermənilərdən minalanmış ərazilərin xəritəsini tələb edirik. Ancaq ermənilər daha çox Azərbaycan vətəndaşının həyatını itirməsində maraqlıdır. Ona görə də düşməndən xəritə gözləmək yersizdir. Ermənilərdən humanist davranış görməyəcəyik. Kilsəyə ziyarət adı ilə gələn erməni keşişlər dini geyimlərin altında mina gizlədir və terrorçuluqla məşğul olurlar".

**T.Abbaslının fikrincə, adekvat addımlar atmağın vaxtıdır:** "Laçın dəhlizi bağlanmalıdır. Xankəndidəki terror yuvası məhv edilməlidir. Ermənistanla düşmənin başa düşdüyü dildə, yəni güc diliylə danışmalıyıq. Azərbaycan öz suverenliyini və vətəndaşlarının təhlükəsizliyini konkret və radikal addımlarla təmin etməlidir. Ermənilərin vicdana gəlməsini, yaxud rusların onların başına ağıl qoymasını gözləyə bilmərik. Əks təqdirdə qurbanlarımız çoxala bilər. Təbii ki, beynəlxalq aləmdə də mübarizəmiz davam etməlidir. Ermənilərin əməlləri, kimliyi, xarakteri barədə təbliğatımız getməlidir. Qarantor ölkə Rusiyanın Ermənistana təzyiq göstərməsinə çalışmalıyıq. Paralel olaraq ordumuz hazır vəziyyətə gətirilməlidir. Tez zamanda anti-terror əməliyyatı keçirərək Xankəndi, Xocalı, Xocavəndi erməni quldurlarından təmizləməliyik. O cümlədən vaxt itirmədən Azərbaycan-Ermənistan sərhədini rəsmi Bakının məqsədəuyğun bildiyi xəritəyə əsasən müəyyən etməliyik. Hətta lazım gələrsə, üçüncü Qarabağ savaşına da hazır olmalıyıq".

**İsmayıl Qocayev**

# Mina qoyulan yol işlək olub

## Ordan xeyli "Kamaz"lar və traktorlar keçib




## Partlayışda sağ qalan rejissor "Şərq TV"-yə danışıb

Bir neçə gün öncə xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcərə ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu "Kamaz" markalı sərnişin avtomobili rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşüb.

Hadisə nəticəsində 3 nəfər - Sirac Abışov (AzTV telekanalının operatoru), Məhərrəm İbrahimov ("AzərTAC" xəbər agentliyinin əməkdaşı), Arif Əliyev (RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini) həlak olub. Digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. **Xəsarət alanlar sırasında AzTV-nin rejissoru Emin Məmmədov da olub. O, baş vermiş hadisə ilə əlaqədar "Şərq TV"-yə danışıb. Mina partlayışında sağ qalan Emin bildirib ki, 2020-ci ilin noyabr ayından Qarabağ zonasında idilər və dəymiş ziyanla bağlı materiallar hazırlayırdılar:** "Bir neçə aydır ki, Qarabağ zonasındaydıq. Kəlbəcərə isə mayın 31-də gəlmişdik. İyun ayının 4-nə qədər isə 15 kəndi görmək və çəkmək bizlərə nəsib oldu. Hadisə baş verən günü bizim maşınımız xarab olmuşdu. Buna görə də biz hərbi hissədən "Kamaz" istədik ki, çəkilişimiz dayanmasın. İlk növbədə çəkilişə getməmişdən öncə posta gəldik və icra nümayəndələri ilə görüşdük və yolumuzu Susuzluq kəndinə tutduq. Həmin gün Məhərrəm İbrahimovla mən qabaqda əyləşmişdik. Sonradan icra nümayəndəsi Kamil müəllim Məhərrəmə dedi ki, sən, zəhmət olmasa düş, qoy qabaq kabinədə mən əyləşim. Çünki yolu o yaxşı tanıyırdı. İkinci qrupumuz isə arxadan gəlirdilər. Onlar bizdən bir az uzaq idilər. Biz hər çəkiliş zamanı iki qrupa bölünürdük. Bir qrup inzibati binaları çəkirdi, bir qrup isə yaşayış yerlərini. Həmin gün dörd kəndi çəkməli idik. Çox təəssüf ki, belə bir hadisə yaşandı. Həmin hadisə anları Kamil müəllimin telefon kamerası ilə çəkilib. O, bu çəkilişi təsadüfən edirdi. Sadəcə olaraq, 28 il həsrətində olduğu öz torpağını, kəndini çəkmək istəyirdi. Heç inanmazdıq ki, başımıza belə bir hadisə gələcək. Qəfildən yuxarı qalxanda partlayış baş verdi. Maşın anidən qalxdı yuxarı və düşdü. O an düşündüm ki, hansısa bədən hissəm qopub, düşəcək. Çox şükür Allaha, salamat qurtardım".

### AzTV-nin rejissoru: "Qənaətim budur ki, ermənilərə 10 gün vaxt verdiyimiz zaman ora sürpriz mina basdırıblar"



*O qeyd edib ki, hadisə zamanı qabaq və arxa kabinə tamamilə deformasiyaya uğramışdı:* "Yanımdakı sürücünün oturacağı yanmağa başladı və biz dərhal kabinədən kənarlaşdıq. Aşağı düşəndə "Kamaz"ın sağ tərəfinin ortasında icra nümayəndəsinin bədəninin yarısını gördüm. Onu qırağa qoyduq. Fikirləşdik ki, yanğın başa vera bilər. İkinci kabinəyə baxdıqda orada nə Sirac Abışovu, nə də Məhərrəm İbrahimovu görmədim. Geri qayıdarkən partlayış baş verdi. Daha sonra dalımızca hərbi polis maşını gəldi. Mənim sol tərəfim tutulmuşdu və sifətim qan idi. Uşaqları görmədiyim üçün əvvəlcə sevinirdim ki, yəqin sağ qalıblar. Amma təəssüflər olsun ki, tank əleyhinə mina olduğu üçün onun dalğası əməkdaşlarımızı kənara atmışdı".

**E.Məmmədov qeyd edib ki, getdikləri yol əvvəllər işlək olub:** "Biz gedəndə hərbiçilərdən soruşduq və onlar dedilər ki, bu yol işləkdir. Həmin yoldan nə qədər "Kamaz" və traktorlar keçib. Bəziləri bildirir ki, çəkilən videoda əks olunan şəkillərdə ləkələr var və mina ora basdırılıb. Amma qeyd edim ki, bütün yollar o formada idi. Mənim şəxsi fikrim odur ki, ermənilər həmin yola sürpriz deyilən mina qoyublar. Belə hesab edirəm ki, ermənilərə 10 gün vaxt verdiyimiz zaman onlar həmin ərazilərə minalar basdırıblar. 60 santimetr dərinlikdə minanı yerləşdirirlər və üzərinə taxta qoyurlar. Zaman keçdikdə isə həmin taxta çürüyür və kimsə keçdikdə partlayır. Düşünmürəm ki, minalar hadisə yaşanmazdan bir neçə gün öncə basdırılıb. Orada hərbçilərimiz, xüsusi təyinatlılarımız var. Onların olduğu zaman kimsə gəlib diversiya yarada bilməz".

**Aynurə Pənahqızı**



## 6 xəstəxanada pozuntular aşkarlanıb

### Sənədlər Baş Prokurorluğa göndərilib

**6 xəstəxanada pozuntular aşkarlanıb, sənədlər Baş Prokurorluğa göndərilib**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində yoxlamalar davam etdirilir.

Agentlikdən "Report"a verilən məlumata görə, yoxlamalar zamanı Saatlı Rayon Mərkəzi Xəstəxanası, Hacıqabul Rayon Mərkəzi Xəstəxanası, Göygöl Rayon Xəstəxanası, Samux Rayon Xəstəxanası, Biləsuvar Rayon Xəstəxanası və Lənkəran Rayon Xəstəxanasında qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların və xəstələrin qidalanmasının təşkili sahəsində tələblərin kobud şəkildə pozulması faktları aşkar olunub. Bu faktlara hüquqi qiymət verilməsi üçün sənədlər toplanaraq Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim olunub.

*Qeyd edək ki, tibb müəssisələrində həyata keçirilən nəzarət tədbirləri çərçivəsində xəstələrin qidalanma rejiminin təşkili, ərzağın keyfiyyəti, qida bloklarının sanitar-texniki və sanitar-gigiyenik vəziyyəti və qida təhlükəsizliyi tələblərinə əməl olunması yoxlanılır.*

*Yoxlamaların nəticələri ilə bağlı ictimaiyyətə ətraflı məlumat veriləcək.*

## Bu gündən Bakıda bütün yollarda hərəkət bərpa olunacaq

**İyunun 8-də, səhər saat 06:00-dan şəhər halqasının əhatə etdiyi küçə və prospektlərdə nəqliyyatın hərəkətinə tətbiq edilən məhdudiyyət aradan qaldırılacaq.**

Bu barədə Bakı Nəqliyyat Agentliyi məlumat yayıb. Qeyd olunub ki, sözügedən tarixdən 1, 2, 4, 5, 6, 10, 18, 31, 37, 46, 53, 61, 65, 77, 88, 125, 127, 205 və M3 nömrəli marşrut xətlərinin hərəkət sxeminə tətbiq edilən müvəqqəti dəyişiklik də ləğv olunur: "Bir daha bütün şəhər sakinlərinə məhdudiyyətlərin tətbiq edildiyi günlərdə göstərdikləri anlayış üçün təşəkkür edirik".

# Azərbaycan anti-terror əməliyyatlarına başlaya bilər

"İkinci Qarabağ savaşının bitməsi və üçtərəfli bəyanatın imzalanmasına baxmayaraq, Ermənistan terrorçuluq niyyətlərindən əl çəkmək fikrində deyil".

**Bu barədə "Şərq"ə açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib.** Siyasi şərhçi bildirib ki, erməni terrorçularının imzalanmış üçtərəfli bəyanatın şərtlərini pozaraq Kəlbəcər rayonu ərazisində basdırdığı minaların partlaması nəticəsində Azərbaycanın iki media işçisi həyatını itirdi: "Ermənistanın bu cür təxribatçı addımlarının arxasında vəziyyəti daha da gərginləşdirmək və bölgədə uzunmüddətli münaqişəni alovlandırmaq dayanır.

Şübhəsiz ki, münaqişənin yenidən qızışdırılmasında bəzi maraqlı qüvvələr mövcuddur. Bu qüvvələr Ermənistanın həm daxilində, həm də xaricindədir. Hesab edirəm ki, pərdə arxasında rus sülhməramlıları vəziyyətin gərginləşdirilməsində maraqlı kimi görünürlər. Əks halda ermənilərin bu cür təxribatlarının qarşısının alınmasına ciddi-cəhdlə çalışardılar. Necə ki, 10 noyabr 2020-ci ildə imzalanmış sənədlərin mürəkkəbi qurumamış Laçın dəhlizinə daxil oldular. Ermənistanı qızışdırıb belə təxribatlara çəkməkdə əsas məqsəd Azərbaycanın dirənc göstərdiyi Zəngəzur dəhlizi məsələsində fikirləri yayındırmaq və məsələni başqa səmtə yönəltməkdir".

### "Türkiyənin öz hərbi bazalarını Qarabağ və ətraf ərazilərdə yerləşdirməsi mümkündür"




**S.Hümbətovun fikrincə, əgər erməni terrorçuları bu yaramaz və təxribatçı fəaliyyətlərini davam etdirərlərsə, Azərbaycan anti-terror əməliyyatlarına başlaya bilər:** "Türkiyənin öz hərbi bazalarını Qarabağ və ətraf ərazilərdə yerləşdirməsi mümkündür. Rus sülhməramlılarının fəaliyyətinə yenidən baxıla bilər. Baş verən proseslər beynəlxalq səviyyədə müzakirəyə çıxarılmalıdır. Hər vəziyyətdə Ermənistanın atdığı addımlar tam şəkildə regionda stabilliyi pozmaq və münaqişəni yenidən alovlandırmağa hesablanıb".

**İsmayıl**

# Rusiya miqrantlara qarşı tələblərini sərtləşdirib

## Nədənsə bu qanun azərbaycanlılara qarşı daha sərt işləyir

Rusiyada işləmək üçün icazə və ya patent almaq istəyən əcnəbilər bundan sonra rus dilində polisə, poliklinikaya müraciət etmək və işə qəbulla bağlı müsahibədən keçmək üçün bu dili kifayət qədər bildiklərini təsdiqləməlidirlər.



Bu tələblər 7 iyun tarixindən qüvvəyə minən və Rusiya prezidenti tərəfindən imzalanan bu ölkədə yaşayan əcnəbilərin hüquqi statusunu tənzimləyən qanuna edilmiş əlavə və dəyişikliklərdə yer alır. Hökumətin qərarına əsasən, iş icazəsi və ya patent almaq üçün müraciət edən şəxs xarici dil kimi rus dilindən imtahan verdiyi vaxt sosial-məişət sahəsində ünsiyyət ehtiyacını təmin etməyi bacardığını təsdiqləməlidir. Bundan başqa, miqrantlar müsahibinin səsləndirdiyi və ya audio məlumat kimi ötürülən informasiyanı şifahi şəkildə qəbul etməyi də bacarmalıdır: "Əsas məzmunu başa düşmək, söhbətin nədən getdiyini müəyyənləşdirmək üçün sosial-məişət və məhdud peşə sahələri ilə əlaqəli mətnləri oxuyub anlamalıdır". Eləcə də, rus dili imtahanından müvəffəqiyyətlə keçmək üçün bəzi anketləri, formaları doldurmağı bacarmaq tələb olunur. Rus dili sertifikatının etibarlılıq müddəti, həmçinin Rusiya tarixini və Rusiya Federasiyası qanunvericiliyinin əsaslarını bilmə tarixi sertifikatın verildiyi gündən müəyyənləşdirilir. Rusiyada yaşamaq üçün icazə alanlara sertifikat müddətsiz veriləcək. Yaşayış icazəsi ləğv olunarsa, sertifikatın etibarlılığı da avtomatik olaraq qüvvədən düşəcək. Bununla belə, Rusiyada yaşamaq üçün icazə almaq istəyənlərin imtahan sualları daha çətin olacaq. Rusiya Dövlət İdarəetmə Universitetinin professoru Vladimir Volox qanuna edilmiş dəyişikliyi belə şərh edib: "Bilirik ki, əvvəllər də Rusiyaya əmək fəaliyyəti üçün üz tutan miqrantlar, eləcə də yaşamaq üçün icazə və ya vətəndaşlıq almaq istəyənlər rus dili, tarix və qanunvericiliyin əsaslarından kompleks imtahan verirdilər. Mənim fikrimcə, qanuna indi edilən dəyişikliklər sadəcə əvvəllər qəbul edilmiş müddəaları konkretləşdirir". Voloxun sözlərinə görə, yeni qərarla "orta norma" müəyyən edilib ki, bu da üç ilə bərabərdir. Çünki üç ildən sonra dil yavaş-yavaş unudulmağa başlayır. Professor onu da qeyd edib ki, indi imtahan vermə qaydası bir qədər dəyişəcək. Bundan sonra miqrantlar rus dili və tarix imtahanlarını ali təhsil müəssisələrində və ya onların filiallarında verəcəklər.

**"Halbuki, ermənilərə, ukraynalı və belaruslara qarşı bizə göstərilən kobud münasibəti görmürük"**

**Uzun müddət Rusiyada çalışmış tanınmış jurnalist Fuad Abbasov "Şərq TV"-nin "Düzünü deyək" verilişində iştirakı zamanı deyib ki, Rusiyada miqrantlara qarşı sərtləşmə əməliyyatın səbəbləri var. Jurnalistin sözlərinə görə, son aylarda, xüsusən Vətən müharibəsindən sonra Rusiyada azərbaycanlılara qarşı münasibət dəyişib:** "Rusiyada miqrantlara 16 iyuna qədər vaxt veriblər. Həmin tarixdən sonra hamısı ölkədən deportasiya olunacaq. Nəyə görəsə, bu qanun azərbaycanlılara qarşı daha sərt işləyir. Halbuki, ermənilərə, ukraynalı və belaruslara qarşı bizə göstərilən kobud münasibəti görmürük. Rusiyada miqrasiya siyasəti azərbaycanlılara qarşı daha sərt aparılır. Sanki "yuxarı"dan əmr verilib ki, Rusiyada yaşayan və işləyən azərbaycanlıları incidin, onlara təzyiq göstərin. Hesab edirəm ki, Moskvanın ölkədə yaşayan azərbaycanlılara qarşı mənfi münasibətinin səbəbi 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm qələbədir. Rusiya bu qələbəni həzm edə bilmir. Çünki hamı çox yaxşı bilir ki, Ermənistanın timsalında əslində Rusiyaya qalib gəlmişik. Azərbaycan və Türkiyə Ermənistan və Rusiyaya qalib gəlib. Bütün dünya gördü ki, dünyada yayılmış rus silah-sursatı, texnikası Türkiyə PUA-ları qarşısında aciz duruma düşdü. Ona görə də humanitar müstəvidə, insanlar arasında münaqişə yaratmaqla, irqlərarası süni nifaq salmaqla bir növ qisas almağa çalışır. Biz 2008-ci ildə bunu Gürcüstan məsələsində görmüşdük. Sizi inandırıram ki, bu, hələ başlanğıcdır, davamı gələcək. Xatırlayırsızsa, keçən il Dərbənddə insanlar yığışıb qalmışdı. Rusiya sərhədləri bağlayaraq, onların Azərbaycan tərəfinə keçməsinə imkan vermirdi. Amma rus mediası xəbərlər yayırdı ki, guya, Azərbaycan tərəfinin sərhədi açmaması səbəbindən həmin adamlar ölkəsinə geri dönə bilmirlər. Əslində Rusiya onları qəsdən buraxmırdı. Orada soydaşlarımıza qarşı çox kobudluq edildi, onları döydülər, təhqir etdilər".

**İsmayıl Qocayev**



# 4 nəfər vəfat edib

## 221 nəfər koronavirusdan sağalıb, 32 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 32 yeni yoluxma faktı qeydə alınıb, 221 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq" ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 4 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 334 min 747 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 327 min 114 nəfər müalicə olunaraq sağalıb, 4 945 nəfər vəfat edib. Aktiv xəstə sayı 2 688 nəfərdir.

*Ötən müddət ərzində 3 milyon 572 min 418 test aparılıb. Bugünkü test sayı isə 4 673-dür.*

# Bakıda əri tərəfindən boğazından bıçaqlanan qadın ölüb



**Bakının Sabunçu rayonunda bıçaqlanma hadisəsi baş verib.**

APA xəbər verir ki, hadisə ötən gün Zabrat qəsəbəsində qeydə alınıb.

Belə ki, 42 yaşlı Svetlana Məmmədova həyat yoldaşı ilə mübahisə edib.

Mübahisə zamanı qadın boğazından bıçaqlanıb. Yaralı xəstəxanaya yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq, o bu gün 3 saylı şəhər xəstəxanasında ölüb.

# Saxta COVİD-19 pasportu satılır

Son zamanlar müxtəlif sosial şəbəkələrdə koronavirus əleyhinə peyvəndin vurulması ilə bağlı vətəndaşların saxta sənəd əldə etməsi barədə məlumatlar yayılıb. Bir müddət bundan öncə isə bu barədə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin yaydığı birgə məlumat yaymışdı.

Bildirilmişdi ki, yayılan məlumatların yerindəcə araşdırılması və yoxlanılması aidiyyəti qurumlar tərəfindən təmin edilib. Araşdırmanın nəticəsi olaraq isə Bakı şəhəri üzrə 7 və 12 nömrəli şəhər poliklinikalarında, Şəki Rayon Mərkəzi Xəstəxanasında, Sumqayıt şəhəri üzrə 2, 3 və 5 nömrəli uşaq poliklinikalarında, 3 saylı Şəhər Xəstəxanasında, Gəncə şəhəri üzrə 2 nömrəli Şəhər Poliklinikasında çalışan ümumilikdə 12 nəfər işdən kənarlaşdırılmış və onların əmək müqavilələrinə xitam verilib. İndi isə sosial şəbəkələrdə insanların 40 manat ödəyərək saxta COVİD-19 pasport almaqları barədə fikirlər səsləndirilir.

**Mövzuya münasibət bildirən Milli Məclisin deputatı Razi Nurullayev "Şərq"ə açıqlamasında bildirib ki, bu cinayət əməlini törədən şəxslər mütləq cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Deputat qeyd edib ki, bu, bəşəri bir cinayətdir:** "Təəssüf edirəm ki, pandemiyanın belə bir vaxtında hələ də bundan qazanc məqsədi üçün istifadə edənlər var. Bilirik ki, dünyanı çox təhlükə altında saxlayan bir infeksiya yayılıb. Təəssüf ki, bu infeksiya nəticəsində minlərlə insan həyatını itirib. Belə bir halda mənə elə gəlir ki, insanlar özü maraqlı olmalıdırlar ki, peyvənd vurdursunlar. Həqiqətən də bununla onlar həm öz səhhətlərini, həm də ki yaxınlarını qorumuş olacaqlar. Həmçinin də qanunlara tabe olmuş olacaqlar. Amma pulsuz olaraq peyvənd vurdurmaq əvəzinə 40-50 manat verib, yalançı pasport almaqla həm öz həyatını, həm də digərlərinin həyatını təhlükəyə atmağın nə anlamı var? Bu həqiqətən bir cinayət əməlidir".

**"Bu cinayət əməlini törədən şəxslər mütləq cinayət məsuliyyətinə cəlb olunmalıdırlar"**

**"Yalançı COVİD-19 pasportu olan insanlar bir neçə aydan sonra həmin xəstəlik nəticəsində ölə bilərlər"**




**Deputat vurğulayıb ki, bu cür saxta sənəd verən orqan çox böyük yanlışlığa yol vermiş olur:** "Əgər bir vətəndaş bunu almaq istəyirsə, onu başa düşmək olar ki, tez-tələsik ona COVİD-19 pasportu lazımdır. Çünki vaxtında vurdurmayıb, indi isə 1-2 ay gözləməli olacaq. Amma bunu verən orqan, təşkilat, xəstəxana çox böyük yanlışlığa yol vermiş olur. Həmçinin Hippokrat andını pozmuş olur. Çünki bu, tək o insanın deyil, həm də onun ətrafında olan insanların həyatını təhlükəyə atmaq deməkdir. Yalançı COVİD-19 pasportu olan insanlar bir neçə aydan sonra həmin xəstəlik nəticəsində ölə bilərlər və yaxud da müalicə yanlış ola bilər. Bu həm də bəşəri bir cinayətdir. Buna görə də mən insanları bu şəkildə yalançı COVİD-19 pasportu almamağa və qanunsuzluq etməməyə səsləyirəm. Dövlət pulsuz şəkildə peyvəndləri verir. Gedin vaksinasiyadan keçin və həqiqi pasportlarınızı alın. Bu işdə qeyri-qanuni hərəkət edənlər, cinayət əməlinə yol verənlər də düşünürəm ki, gec-tez hüquq-mühafizə orqanları tərəfindən təsbit olunacaq və cəzalandırılacaq. Heç kim nə özünü, nə də ailəsini bu şəkildə təhlükəyə atmasın".

**Aynurə Pənahqızı**

# İsrail-Azərbaycan əlaqələrində qızıl dövr başlayıb



*Bu ölkədə səfirliyimizin açılması Azərbaycanla müsəlman dünyası arasında problemə gətirib çıxarmayacaq*

"İsrail Azərbaycan əlaqələri İkinci Qarabağ müharibəsində uğurla sınaqdan çıxdı. Ümumiyyətlə, Benyamin Netanyahunun Baş nazirliyi dövrünü İsrail - Azərbaycan əlaqələrinin qızıl dövrü kimi qiymətləndirmək olar".

**Bu fikirləri "Şərq"ə açıqlamasında MCP sədrinin muavini, politoloq Məhəmməd Əsədullazadə deyib. O qeyd edib ki, artıq Netanyahunun 12 illik Baş nazirliyi sona çatdı və İsraildə yeni hökumət formalaşıb:** "Yeş Atid" partiyasının lideri Yair Lapid, "Yeş Atid", "Blue and White", "Yisrael Beytenu", "Yamina", "New Hope", "Labour", "Meretz və "Raam" tərəfindən dəstək alaraq yeni koalisiya hökuməti qurduğunu bildirib. Yair Lapidin yeni koalisiya hökuməti ilə Azərbaycan arasında əlaqələrin davam etdirilməsi gözlənilir. Çünki İsrail Prezidenti Y.Ruvlenin respublika günü ilə əlaqədar Azərbaycan prezidentinə məktubunda ikitərəfli əlaqələrin bundan sonra da davam etdiriləcəyi vurğulanıb. Həmçinin bu məktubda Azərbaycanın İsraildə səfirliyinin açılmasını xüsusi olaraq arzu edib. Göründüyü kimi, İsrail rəsmiləri daima Azərbaycanın İsraildə səfirliyinin açılmasını yüksək səviyyədə qeyd edirlər. Bu, İsrailin Azərbaycana qarşı münasibətinin yüksək səviyyədə olduğunun göstəricisidir. İsraildə hökumət kabinetlərin dəyişməsinə baxmayaraq Azərbaycanla əlaqələr yüksək səviyyədə saxlanılır. Bundan sonra da belə olacağı gözlənilir".

*M.Əsədullazadə vurğulayıb ki, İsrail Prezidenti də Azərbaycan səfirliyinin açılmasını yüksək səviyyədə qeyd edir:* "Fikrimcə, yeni hökumətlə rəsmi Bakı əməkdaşlığını İsraildə səfirlik açmaqla başlamalıdır. İsraildə səfirliyin açılması Azərbaycanla müsəlman dünyası arasında problemə gətirib çıxarmayacaq. Çünki bir çox ərəb və müsəlman ölkəsi İsraillə sülh və əməkdaşlıq müqaviləsi bağlayır. Hətta İran ABŞ-la nüvə sazişinə görə İsrailə qarşı açıq düşmənçilik siyasətindən bir qədər geri çəkilib. Qeyd edim ki, Azərbaycan Qarabağ müharibəsindən sonra tərəfdaş ölkələrlə strateji və müttəfiqlik müqavilələri bağlamalıdır. Hesab edirəm ki, bu müqavilənin İsraillə bağlanmasının artıq vaxtı çatıb. Azərbaycandan İsrailə köçən minlərlə yəhudi həmyerlimiz var. Onlar Azərbaycanın haqq işini orada müdafiə edirlər. Səfirliyimizin orada açılması İsraildə Qafqaz yəhudilərini bir arada birləşdirəcək. Milli Cəbhə Partiyası olaraq İsrail prezidentinin İsraildə səfirliyimizin açılması çağırışına müsbət cavab verilməsini arzu edirik".

**Aynurə Pənahqızı**



## "Leopard" tankları...

Əsgərlərin xidmətinə verilir

**Müdafiə sənayesi naziri İsmayıl Dəmir yerli və milli sistemlərlə modernləşdirilən "Leopard 2A4" tanklarının Silahlı Qüvvələrin xidmətinə verildiyini açıqlayıb.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, bu barədə Müdafiə sənayesi naziri Tvitter hesabında paylaşım edib. Nazir qeyd edib ki, Piyada Qoşunları Komandanlığının inventarında olan "Leopard 2A4" tanklarının müasir hərb sahəsinə uyğun üstünlüklərini artırmaq yönündə çalışmalar başa çatıb və Ballistik Müdafiə Mərkəzində yeni növ zirehlərin istehsalına keçid edilməklə tanklara uyğunlaşdırılmasına başlanılıb. Aparılan təhlillər yeni zirehlərin tanklarda istifadə edilən ən güclü ballistik qorumaya sahib olduğunu deməyə əsas verir. Modernləşdirilmiş "Leopard"lar artıq mehmetciyin istifadəsindədir.

**Məlahət**

# Qaregin din xadimi deyil, terrorçuların başında duran şəxsdir

*"Ermənistan-Azərbaycan arasındakı münaqişədə əsas katalizator və lokomotiv rolunu məhz erməni kilsəsi oynayıb"*



"Qaregin rus sülhməramlılarının müşayiəti ilə torpaqlarımıza gəlib. Əslində bu məqam bizim üçün başqa imkanlar meydana çıxarır"

Ermənilərin katolikosu II Qaregin Qarabağa gəlib. Rusiya sülhməramlılarının müşayiəti ilə Xankəndinə gələn Qaregin qondarma rejimin rəhbəri Araik Arutyunyanla və Xankəndidə olan ermənilərlə görüşüb və din xadiminə yaraşmayan növbəti açıqlamalar verib.

Bildirib ki, "Qarabağ münaqişəsi" bitməyib və erməni xalqının mübarizəsi davam edir. Əslində bütün dinlərin əsasında sülh dayanır. Adətən din xadimləri toqquşmaların qarşısının alınmasında rol oynayırlar. Erməni katolikos isə tamamilə bunun əksini edir, erməniləri müharibəyə qoşulmağa, azərbaycanlıları öldürməyə səsləyir. Ümumiyyətlə, erməni katolikosu heç zaman sülhə xidməti ilə yadda qalmayıb. Daim terrorçu, irqçi mövqeyi və bəyanatları ilə gündəmə gəlib. Hətta Şeyxülislamın ona ünvanladığı sülh təşəbbüslərinə də müsbət reaksiya verməyib. "Din xadimi" 44 günlük müharibə zamanı da aqressiv çıxışları ilə seçilib, keşişlərin əlinə silah verərək Qarabağa göndərib. Yəni Qareginin bütün fəaliyyəti Qarabağda gərginliyi artırmaqdan ibarət olub. Əgər baş keşiş 44 günlük müharibədən sonra Qarabağa qayıdan 25-30 min ermənin başına ağıl qoymaq üçün, onları sülhə səsləmək üçün gəlmiş olsaydı, bu gəlişə göz yummaq olardı. Lakin göründüyü kimi Qareginin məqsədi hərbçilərlə görüşərək onları yenidən müharibəyə çağırmaq, ermənilərin "mübarizə ruhunu" yüksəltmək imiş. Bəs, Laçın dəhlizinə nəzarəti həyata keçirən Rusiya sülhməramlıları Qaregini hansı əsasla Azərbaycan torpağına buraxıblar?! Niyə terrora açıq dəstək verən qaniçən "keşişin" Qarabağa gəlişinə və erməniləri üsyana səsləməsinə imkan yaradılıb?

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə deyib ki, Ermənistan-Azərbaycan arasındakı münaqişədə əsas katalizator və lokomotiv rolunu məhz erməni kilsəsi oynayıb. Analitik vurğulayıb ki, Qaregin din xadimi deyil, ideoloji-hərbi və terrorçuluq metodundan istifadə edənlərin başında duran şəxsdir:** "Erməni kilsəsi bölgəyə ciddi şəkildə zərbə vurublar. Yüz il ərzində həm daşnak təfəkkürü, həm də erməni kilsəsinin tezisləri, ideoloji baxışları "dənizdən dənizə Ermənistan" inşa etmək məqsədi ilə bölgə xaqlarına, xüsusən Azərbaycan türklərinə qarşı soyqırımı həyata keçiriblər. Məsələ ondan ibarətdir ki, Qaregin rus sülhməramlılarının müşayiəti ilə torpaqlarımıza gəlib. Əslində bu məqam bizim üçün başqa imkanlar meydana çıxarır. 10 noyabr razılaşmasının mühüm tərkib hissəsindən biri də xalqlar arasında etimada və barışa gətirib çıxaracaq yolun qət edilməsidir. Həmin yol üzərində bir sıra məsələlər həll etməliydi ki, onlardan da biri köçkünlərin öz yurdlarına qayıtması ilə bağlıdır. O zaman belə bir məsələ meydana çıxır. Əgər ermənilərin Qarabağa gəlişinə, özü də bunun sülhməramlıların müşayiəti ilə həyata keçməsinə şərait yaradılırsa, o halda imkan verilməlidir ki, Azərbaycanın din xadimləri, tarixçiləri və bütövlükdə Qərbi Azərbaycanla bağlı şəxslər, ziyalılar da öz tarixi yurdlarına gedə bilsinlər. Yalnız o təqdirdə bu prosesdə erməni tərəfinin və eyni zamanda Rusiya sülhməramlılarının səmimiyyətinə inana bilərik. Düşünürük ki, məqsəd 10 noyabr sazişində yer alan müddəanın həllinə təkan verməkdir".

**İsmayıl Qocayev**



## Kremlin planları hamıya bəllidir

Rusiya ətrafındakı ölkələri birlik altında birləşdirmək niyyətindədir

**"Türkiyə gec-tez Azərbaycanda hərbi baza quracaq. Bu, tarixi zərurətdir!". Bunu "Şərq"ə açıqlamasında BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov deyib. Analitik bildirib ki, Rusiyanın gələcək planları hamıya bəllidir:**

"Rusiya yaxın ətrafında olan ölkələri öz təhlükəsizliyini təmin etmək üçün bir birlik altında birləşdirmək niyyətindədir. Bu birlik Rusiya üçün bufer zona təşkil edəcək. Eyni zamanda, bu ölkələr artıq Rusiyadan icazəsiz addım ata bilməyəcəklər. Rusiyanın guya türk birliyinə daxil olmaq istəyi blefdir. Rusiya heç vaxt öz ətrafını digər güclərlə paylaşmaq istəməz. Bu baxımdan, Rusiya bizə qarşı öz tələbini sərt şəkildə qoyacaq. Onda Türkiyənin bazalarını Azərbaycanda yaratmaq şərt olacaq. İstəsək də, istəməsək də Rusiya ilə münasibətimiz soyuyacaq. Ya Rusiyanın yanında, yaratdığı birlikdə olacağıq, ya da onun qarşısında. Qarşısında olmaq üçün isə yanımızda Türkiyə olmalıdır. Şübhə yox ki, Azərbaycan heç vaxt öz müstəqilliyini Rusiyanın təhlükəsizliyinə qurban verməyəcək. Türkiyə ilə hərbi-siyasi-iqtisadi əlaqələrimizi daha da irəli aparmalıyıq. Azərbaycanın gələcəyi Türkiyənin yanındadır!".

**İsmayıl**

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Katalizatorsuz maşınlar cərimələnir

### *Havanın zəhərlənməsinə görə, tədbirləri ekspertlər müxtəlif istiqamətlərdə şərh edir*



Qəbul edilən qanunlarda, tətbiq edilən qaydalarda dövlət maraqları ilə yanaşı, ictimai maraqların təminatı da əsas prioritet hesab edilir. Son günlər bəzi sürücülərin avtomobilləri katalizatorsuz idarə etməsinə görə, cərimələnməsi gündəmi zəbt edən mövzudur. Sosial şəbəkələrdə avtomobillərin yol polisi əməkdaşları tərəfindən cərimə meydançasına aparılması, orada isə sürücüdən avtomobilinə katalizator qoydurması tələbi və bunun üçün də sürücüyə 1 həftə vaxt verilməsi barədə müxtəlif məlumatlar yayılır.

Xüsusən də Bakıda katalizatoru olmayan avtomobillərlə bağlı reydlər keçirildiyi deyilir. Məlumata əsasən, reyd zamanı katalizatoru olmayan avtomobillər 150 AZN cərimə olunur. Bundan sonra avtomobilin cərimə meydançasından çıxarılmasına bu şərtlə icazə verilir ki, avtomobil sahibi katalizator alaraq orada avtomobilə quraşdırsın.

Əslində bu məsələyə ötən ay Bakı şəhər Dövlət Yol Polisi İdarəsi aydınlıq gətirmişdi. İdarənin şöbə rəisi, polis polkovniki Vaqif Əsədov yerli mediaya açıqlamasında bildirib ki, nəqliyyat vasitələrində katalizatorların olmaması ətraf mühitə atılan zəhərli qazların miqdarını və mühərrikin səs gücünü artırır, bu isə inzibati xəta məsuliyyəti yaradır: "Bu tipli avtomobillərin istismarı yolverilməzdir. Bir daha vətəndaşlardan xahiş edirik ki, idarə etdikləri nəqliyyat vasitəsinin sazlığına diqqət etsinlər, mövcud çatışmazlığın aradan qaldırılması üçün lazımi tədbirlər görsünlər. Texniki baxış zamanı və yaxud avtomobili servisə apararkən nasazlıq qeydə alındıqda, həmin nasazlıqlar aradan qaldırılmalıdır. Bəzi sürücülər deyir ki, həmin avtomobilləri Gürcüstandan elə bu vəziyyətdə Azərbaycana gətiriblər. Amma qanun deyir ki, sürücü idarə etdiyi nəqliyyat vasitəsini saz vəziyyətdə saxlamalıdır. Yəni texniki nasazlıq varsa, bunu sürücü aradan qaldırmalıdır. Azərbaycanda yol hərəkəti təhlükəsizliyi və ətraf mühitin qorunması Dövlət Proqramı səviyyəsində təmin edilirsə, hər birimiz bu sahədə öz məsuliyyətimizi dərk etməliyik".

### Sürücü məsuliyyətli olmalıdır

Verilən cavab hüquqi baxımdan qaneedicidir. Lakin sürücülərin narazılığının da müəyyən əsasları var. Məsələn, qonşu ölkədən avtomobil alıb gətirənlər iddia edir ki, əgər avtomobilin katalizatorunun olmaması texniki nasazlıq hesab edilirsə, niyə sərhəd-keçid məntəqəsində nasaz avtomobilin ölkə ərazisinə buraxılmasına icazə verilir? Və bu qayda niyə bütün avtomobillərə tətbiq edilmir? Narazı sürücülər xatırladır ki, son dövrlər Avropa ölkələrindən gətirilən bir çox hibrid avtomobillərinin katalizatoru Gürcüstanda çıxarılaraq Azərbaycana katalizatorsuz tranziti həyata keçirilir. Bir çox vətəndaş iddia edir ki, avtomobilləri ölkəyə gətirərkən katalizator olmayıb və maşın bu formada da gömrükdə qeydiyyatdan keçirilib. Sosial şəbəkələrdə avtomobil ustalarının məsələylə bağlı açıqlamaları var. Onlar mövcud duruma belə aydınlıq gətirir: "Bizim müştərilərimiz var ki, bununla bağlı onlarda problemlər yaranıb. Əslində avtomobillərdə katalizatorlar olmalıdır. Avtomobillər ölkəyə gətirilərkən gömrükdə mütləq yoxlanılmalıdır.

Lakin çox vaxt bu və digər detalları yoxlamaq üçün peşəkarlar olmur. Bu səbəbdən də yoxlanılma aparılmadan avtomobillər qeydiyyata alınır. Son günlər bu məsələnin üstünə düşüblər. Katalizatorun olması avtomobil yanacağının işlənməsinə təsir edir. Mühərrikə daxil olan yanacaq emal olunarkən zəhərli maddələr havaya buraxılmır. Motor da normal işləyir. Lakin bəzi işbazlar katalizatoru çıxararaq min dollara ayrıca satırlar. Katalizatorun olması mühərrikin səssiz işləməsinə, yağın çox israf olunmamasına, yanacağın az yandırılmasına təsir edir". Vətəndaşların avtomobillərinin gömrükdə katalizatorsuz qeydiyyata salınmasına gəlincə, rəsmi tərəfdən məsələ təkzib olunub. Dövlət Gömrük Komitəsindən bildirilib ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 yanvar 2014-cü il 2 saylı qərarı ilə Azərbaycan Respublikasına idxal edilən avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələr üzrə 2014-cü il aprelin 1-dən AVRO-4 ekoloji normaları tətbiq edilir.

"Avtonəqliyyat vasitəsinin AVRO-4 ekoloji normalara uyğunluğu nəqliyyat vasitəsinin VIN kodu - nəqliyyat vasitəsinin eyniləşdirmə nömrəsi vasitəsilə bazadan təyin edilir. Bu baxımdan ekoloji normalara cavab verən nəqliyyat vasitələrində katalizator sisteminin işlək olması vacibdir", - deyə qurumdan bildirilib.

Deyilənlərdən görünür ki, avtomobilin katalizatorunun olması bütün hallarda ilk növbədə sürücüyə sərfəlidir. Avtomobilin katalizatorunun olmaması qanunla texniki nasazlıq hesab edilirsə, nasazlığı aradan qaldırmaq sürücünün öhdəsinə düşür. Həmçinin avtomobilin katalizatorsuz idarə edilməsi nəticəsində havaya zəhərli qazlar miqdardan artıq ötürülürsə, bu, ekologiyaya, ətraf mühitə ziyan vurulması deməkdir. Vətəndaş məsuliyyəti bizdən tələb edir ki, ətraf mühitin çirklənməsinin qarşısını alaq, təbiətin mühafizəsinə çalışaq. Bunun ən asan yolu da dövlətin həyata keçirdiyi tədbirlərə dəstək olmaqdır. Bir sürücüdən tələb olunansa, atmosferə mümkün qədər az zəhərli qazın ötürülməsinə səy göstərməkdir. Sonucda bu havanı hamımız uduruq. Həmin sürücü də, onun ailəsi, övladları da.

### Təmiz hava almaq istəyiriksə, qanunun tələblərinə əməl etməliyik

**Məsələyə yenə də müxtəlif yanaşmaların şahidi oluruq. Sürücülər arasında populyar olan "Avtostop" verilişinin aparıcısı Tural Yusifov "Facebook" səhifəsində yazıb ki, Azərbaycanda avtomobilin texniki baxış qaydaları bütünlüklə ziddiyyət təşkil edir.** Onun fikrincə, "Toyota Prius"lar ölkəyə katalizatorsuz daxil olubsa, bunda sürücünün günahı yoxdur. "Ölkədə yükdaşımada olan bütün avtomobillərin 90 faizində qurum filteri yoxdur. Köhnə avtobuslarda bu katalizatoru gördüm deyən yoxdur. Sınıq-salxaq minik avtomobilləri tərəfə baxan belə yoxdur. Amma nə üçünsə "Prius"lara diqqət edilir. Sanki kimsə məlumat verib ki, bunların katalizatoru yoxdur". Katalizator vacibdir. Hava zəhərlənir, ekologiya pozulur və s. Bəs onda texniki baxış qaydalarında nə deyilir? Avtomobil texniki baxışa gələndə texniki nasaz olsa belə ona texniki baxış talonu verilir. Gələn il üçün gəldikdə isə həmin nasazlıq olmamalıdır. Deməli, bizim qaydalara əsasən, katalizatorsuz avtomobil ən azı 1 illik texniki baxışdan keçə bilər və onun bir illik möhləti var. Bu nasazlığı gələn dəfə texniki baxışa gələndə aradan qaldırmalıdır.

Bəs onda bu avtomobillər niyə dayandırılır? Sahibinin ən azı 1 il vaxtı varsa, bu, nə deməkdir? Deyilənə görə, avtomobillər katalizatorsuz da gəlir. Bəs gömrükdə "yaşıl zona"da yoxlanış niyə aparılmır? Sadəcə vin kodla yoxlanış edirlər ki, Avro 4-dür? Görünən odur ki, qanunun ziddiyyətindən, gömrük komitəsinin göz yummasından yenə sürücülər əziyyət çəkəcək.

**"Avtosfer.az" saytının baş redaktoru, nəqliyyat üzrə ekspert Elməddin Muradlı isə məsələyə tam ayrı nöqtədən baxır. Ekspert açıqlamasında bildirib ki, bəzi işbazlar bu avtomobilləri Bakıya gətirdikdə katalizator çıxarılır. Onun fikrincə isə burada yol polisini günahlandırmaq düzgün deyil:**

- Əsasən hibrid avtomobillərdə katalizator problem yaradır. Bəzi işbazlar bu avtomobilləri Bakıya gətirdikdə katalizator çıxarılır. Dəqiq bilinmir ki, bu avtomobillər Bakıya gətirilərkən katalizatorlar çıxarılır, yoxsa elə bu formada ölkəyə gətiriblər. Avtomobillər taksi sürücülərinə verilir. Sonra yol polisinin keçirdiyi reydlər zamanı belə avtomobillər aşkarlanır və sürücülər barədə tədbirlər görülür. Yol polisi də qanunun tələbinə uyğun tədbir görür. Sual verilir ki, texniki baxış zamanı bu qüsurlar niyə üzə çıxmır? Birinci, bunlar hibrid avtomobillərdir. Hibrid və elektromobillərin texniki baxışla bağlı yanaşması fərqli olmalıdır. Çünki həmin avtomobilin mühərriki işə düşdükdə havaya yanacaqla işləyən maşından fərqli zəhərli qaz buraxılır. Ona görə bu maşınların texniki baxışda qüsurunu asanlıqla tutmaq olmur. Yol polisi də texniki baxış zamanı avtomobillərin katalizatorlarını yoxlamaq üçün maşının altına girməməlidir. Sadəcə vizual baxış keçirir. Maşının rəngini, ban nömrəsi, zəhərli qazların havaya buraxılma miqdarı, təkərlərin protektorları, aptečka və s. yoxlanılır. Maşının idarəetmə sistemi, əyləc sisteminə baxılır. Bu tip maşınların texniki baxışını keçirmək üçün həmin avtomobillərdən yaxşı anlayışı olan mütəxəssislər olmalıdır. Texniki baxış məntəqələrində xüsusi ixtisaslaşmış ustalar oturmalıdır. Qeyd edək ki, avtomobildə katalizatorun çıxarılmasına görə 50 AZN cərimə yazılır. Lakin katalizatoru çıxarıb, yerinə digər avadanlıq quraşdırılarsa, bu zaman sürücüyə 150 manat cərimə yazılır. İstənilən halda avtomobil cərimə meydançasına aparılır. Bütün hallarda sürücülərdən vətəndaş məsuliyyəti tələb edilir. Sürücü hüquqi dövlətin vətəndaşı olaraq qanunun tələblərinə əməl etməlidir. Xüsusən bu tələblər ümumi istifadə etdiyimiz hava, təbiətin mühafizəsi, ekologiyanın zərər görməməsi ilə bağlıdırsa.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Gürcüstan, Türkiyə örnəkdir...

Gürcüstanda dövlət statusu olan ali təhsil müəssisələri balanslarında və istifadələrində olan əmlakların vergisindən azad ediləcəklər. Bu barədə Əmlak Məcəlləsinə planlaşdırılan dəyişikliklər paketində qeyd olunub. Sözügedən qanun layihəsini "Gürcü Arzusu" partiyasının deputatları: Şalva Papuaşvili, Qiorqi Amilaxvari, Tamar Taliaşvili və Mariam Laşxi hazırlayıb. Qeyd edilir ki, ali təhsil müəssisələri üçün nəzərdə tutulmuş yenilik, universitetləri əmlak vergisindən azad edəcək və onlar bu vəsaiti təhsilin keyfiyyətinin artırılması məqsədi üçün istifadə edə biləcəklər.



## Güzəştlərə getməyə böyük ehtiyac var

### Azərbaycanda da təhsil müəssisələri mütləq vergidən azad edilməlidir

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən təhsil eksperti Kamran Əsədov bildirib ki, pandemiya dövründə ən çox zərər çəkən sahələrin başında təhsil sahəsi gəlir. O qeyd edib ki, bu dövrdə xüsusən özəl tədris mərkəzləri, hazırlıq kursları, hətta özəl universitetlər daha çox çətinliklərlə üzləşib:** "Çünki bilirsiniz ki, onlar dövlət univesitetlərindən fərqli olaraq öz vəsaitləri hesabına maliyyələşirlər. Ancaq dövlət universitetlərinin bir çox vəsaitləri və xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Birmənalı şəkildə pandemiya dövründə özəl tədris müəssisələrinin fəaliyyətinin məhdudlaşması ciddi şəkildə onların gəlirlərin aşağı düşməsinə, amma xərclərin eyni qaydada saxlanmasına gətirib çıxardı. Çünki pandemiya dövründə ölkə prezidentinin qərarına əsasən heç kim işdən azad edilmədi. Qeyd edim ki, özəl ali təhsil müəssisələrinin, tədris mərkəzlərinin təkcə gəlirləri tələbələrin ödədikləri təhsil haqları deyil, eyni zamanda onlar bufetdən istifadə edirlər və yaxud da ki, digər çap xidmətlərindən istifadə edirlər. Bu da mərkəzə əlavə vəsaitlərin daxil olmasına gətirib çıxarır. Nəticədə pandemiya dövründə özəl mərkəzlərin fəaliyyət göstərməməsi onların gəlirlərinin ciddi şəkildə aşağı düşməsinə gətirib çıxardı".

**K.Əsədov hesab edir ki, istər hazırlıq kursları olsun, istərsə də ali təhsil müəssisələri mütləq şəkildə onlar vergidən azad edilməlidirlər:** "Qardaş Türkiyədə ali təhsil müəssisələrində təhsil haqlarının aşağı olmasının əsas səbəbi onların vergidən azad edilməsi və yaxud da ciddi güzəştlərin tətbiq edilməsidir. Hesab edirəm ki, Azərbaycanda da təhsilin əlçatanlığının təmin edilməsi və əhatə dairəsinin genişlənməsi üçün ciddi vergi güzəştlərinə ehtiyac var. Xüsusən təhsil müəssisələri vergidən azad edilməlidir, çünki bunların istehsal etdiyi məhsul dövlətin inkişafı üçündür. Yəni özəl müəssisələr hər hansısa tərəvəz, belə deyək ki, əmtəə istehsal etmir. Onlar ölkənin gələcəyi üçün kadr yetişdirirlər. Məlumdur ki, maddi vəziyyətinə görə bir çox insanlar təhsil ala bilmirlər. Əgər təhsil müəssisələri vergidən azad edilərsə, o zaman özəl mərkəzlərin xidmətləri də aşağı düşəcək. Bu zaman təhsil haqqı və digər xidmətlərin qiyməti də aşağı düşəcək. Birmənalı şəkildə hesab edirəm ki, Azərbaycanda da təhsil müəssisələri bir sıra vergilərdən azad edilməli və güzəştlər tətbiq edilməlidir. Biz artıq pandemiya dövründə gördük ki, dərslər ənənəvi qaydada keçirilə bilmir. Bunun üçün alət lazımdır. Məsələn, planşet, komputer. Həmçinin internetə çıxış imkanları lazımdır. Hesab edirəm ki, bu tipli avadanlıqların alınması üçün özəl mərkəzlərə xüsusi güzəştlər edilməlidir. Vergidən azad edilmələr nəzərdə tutulmalıdır ki, rahat şəkildə özəl mərkəzlər bunları ala bilsinlərr və insanlara daha keyfiyyətli xidmət göstərsinlər. Ümumiyyətlə, Azərbaycanda vergi sisteminə xüsusi yanaşma olmalıdır və təhsil müəssisələri birmənalı şəkildə bir sıra vergilərdən azad edilməlidirlər".

**Aynurə Pənahqızı**

# Turizm ölkəmizə ən çox valyuta gətirən sektordur



## Hava, quru yolu açılmalı, səfər qaydaları yumşaldılmalıdır

"Bu həftənin cümə axşamından etibarən Azərbaycan Türkiyə və Rusiya vətəndaşları üçün hava əlaqəsini bərpa edəcək.

Eyni zamanda, əvvəllər müzakirə etdiyimiz kimi COVID-19-a dair PCR testinin neqativ olduğunu təsdiqləyən sənəd üçün müddət 48 saatdan 72 saata çatdırılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın bu qərarı təqdirəlayiqdir".

**Bunu Milli Məclisin deputatı Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib. Deputat bildirib ki, turizm mövsümünün başladığını nəzərə alaraq mərhələli şəkildə gəlmə turizmdə xüsusi payı olan ölkələr ilə analoji yumşalmalara gedilməsi məqsədəuyğun olardı:** "Belə ki, pandemiyadan əvvəlki ildə Azərbaycana gələn 3 milyon 170 min turistin 29,4 faizi Rusiya, 22,9 faizi Gürcüstan, 10 faizi Türkiyə, 8,1 faizi İran, 3,4 faizi Səudiyyə Ərəbistanı, 2,2 faizi Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları idi. Bu baxımdan, gəlmə turizmdə xüsusi paya malik ölkələrdəki epidemioloji vəziyyətə uyğun olaraq mərhələli şəkildə həmin ölkə vətəndaşlarının da Azərbaycana səfər qaydalarının yumşaldılması ölkəyə daxil olan valyutanın həcminin artırılması baxımdan da vacibdir".

*V.Bayramov qeyd edib ki, turizm neftdən sonra ölkəmizə ən çox valyuta gətirən sektordur:* "2019-cu ildə Azərbaycanın gəlmə turizm gəlirləri 2.7 milyard dollardan çox olub. Post-pandemiya dövründə turizm sektorunda yenidən canlanmanın olacağı gözlənilir. Pandemiyadan öncə turizm və əlaqəli sahələrdə 100 minə yaxın vətəndaşımız çalışırdı. Buna görə də, turizm sektorundakı açılımlar məşğulluğun təmin edilməsi baxımdan da vacib hesab olunur. Vaksinasiya prosesini sürətləndirən və virus sayını lokallaşdıra bilən ölkələr ilə mərhələli şəkildə hava və quru əlaqələrinin bərpa edilməsi məqsədəuyğundur və bu, real sektordakı canlanmaya xüsusi təkan verə bilər".

**Aynurə Pənahqızı**

Son günlər Azərbaycanda bəzi tikinti materiallarının qiymətində artım müşahidə edilməkdədir. Xüsusilə də taxta və taxta məmulatlarının qiyməti kəskin artıb. Bahalaşma armatur və eləcə də xaricdən gətirilən bütün növ tikinti materiallarında müşahidə olunur. Lakin qeyd edək ki, bir müddətdir ki, tikinti materiallarının qiyməti sabit qalmışdı. Bəs hazırda Azərbaycanda tikinti materiallarının bahalaşmasına səbəb nədir?



**Sualımızı iqtisadçı-ekspert Rauf Qarayevə ünvanladıq. Ekspert**

# Qarabağda inşa işləri gedir

## Tikinti materiallarının bahalaşması birbaşa dövlət büdcəsinə ziyandır

**"Şərq"ə açıqlamasında tikinti sektorundakı qiymət artımının müxtəlif səbəblərinin olduğunu bildirdi:** "Tikinti materialları bahalaşması ilə bağlı səbəblər müxtəlifdir. Norm Sementinin Bakıda Nərimanov rayonunda yerləşən distribyuterindən əldə etdiyim məlumata görə, həqiqətən də qiymət zavod tərəfindən 40 qəpik qaldırılıb. Əgər sementin qiyməti əvvəllər 6 manat 80 qəpik idisə, indi 7 manat 20 qəpik təşkil edir. Təbii ki, bunu da vergi rüsumlarının artması ilə əlaqələndirdilər".

"Bir kub taxtanın qiyməti 2 dəfə, plastik pəncərə və qapıların 20-40 faiz arasında qiymətləri qalxıb"

*R.Qarayev qeyd edib ki, əslində hazırkı vəziyyəti nəzərə alsaq qiymətlər də artım olmalı deyildi:* "Səbəb odur ki, Qarabağ zonasında tikinti işləri gedir. Qiymətin qalxması birbaşa dövlət büdcəsinə ziyandır. Bildiyiniz kimi, Qarabağ zonasına 2.2 milyard vəsait ayrılıb. Burda tək tikinti deyil, həm də yenidənqurma işləri gedir. Təsəvvür edin ki, tikinti materiallarının qiyməti qalxır və dövlət büdcəsi nə qədər ziyana düşür. Bir kub taxtanın qiyməti 2 dəfə, plastik pəncərə və qapıların 20-40 faiz arasında qiymətləri qalxıb. Sual verilə bilər ki, taxtanın çoxu Rusiyadan idxal olunur və sair arqumentlər gətirmək olar. Amma niyə məhz iki dəfə, yəni faiz hesabı ilə bu qədər fərq edir? Bildiyiniz kimi, Qarabağ zonası həm də tikinti materialları bazası adlanır. Orada o qədər təbii sərvətlər var ki, əksinə, tikinti materiallarından Azərbaycanı ixraçı kimi dünyaya tanıda bilər. Yəni biz tək neftlə yox, həm də tikinti materiallarına görə dünyada tanına bilərik. Hesab edirəm ki, indiki dövrdə tikinti materiallarının artması dövlətə xəyanətdir. Bu artım mövcud vəziyyəti daha da çətinləşdirəcək. Fikrimcə, dövlət bu sahəyə diqqət etməlidir".

**Aynurə Pənahqızı**

# HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 26..05.2021-ci il tarixli, 7179-15-3E.Q saylı sifarişi ilə (daxil olma 02.06.2021) ipoteka predmeti olan, Bakı şəhəri, Nərimanov rayonu, Xətai prospekti, ev 21 ünvanında yerləşən, 18 mərtəbəli binanın 11-ci mərtəbəsində yerləşən 142.7 kv.m. ümumi, 67.2 kv.m. yaşayış sahəsindən ibarət 3 otaqlı, 64 nömrəli mənzil (Yeni qaydalarla AZ1008, Bakı şəhəri, Nərimanov rayonu, Xətai prospekti 41, M11, m1) açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 29 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti ümumilikdə 285.000 (iki yüz səksən beş min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (285.000) 5%-i, yəni 14.250 (on dörd min iki yüz əlli) manat məbləğində beh ödənilməlidir (tələbkar beh ödəməkdən azaddır). Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 3%-dən artıq olmamaqla.
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Şəmkir rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 6307/2020-12 saylı sifarişi ilə (daxil olma 02.06.2021) ipoteka predmeti olan Şəmkir rayonu, Qədimqala kəndində yerləşən 1,1740 kənd təsərrüfatı təyinatlı, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,0742 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,1484 ha torpaq sahəsi, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,4322 ha torpaq sahəsi və Şəmkir rayonunda yerləşən 1,97 ha torpaq sahələri açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 18 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti: 1,1740 ha torpaq sahəsi - 4.680 (dörd min altı yüz səksən) manat; 1,0742 ha torpaq sahəsi - 5.350 (beş min üç yüz əlli) manat; 1,1484 ha torpaq sahəsi - 5.700 (beş min yeddi yüz) manat; 1,4322 ha torpaq sahəsi - 7.150 (yeddi min yüz əlli) manat; 1,97 ha torpaq sahəsi - 15.760 (on beş min yeddi yüz altmış) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (1,1740 ha torpaq sahəsi) 10%-i, yəni 468 (dörd yüz altmış səkkiz); (1,0742 ha torpaq sahəsi) 10%-i, yəni 535 (beş yüz otuz beş); (1,1484 ha torpaq sahəsi) 10%-i, yəni 570 (beş yüz yetmiş); (1,4322 ha torpaq sahəsi) 10%-i, yəni 715 (yeddi yüz on beş); (1,97 ha torpaq sahəsi) 10%-i, yəni 1.576 (bir min beş yüz yetmiş altı) manat məbləğində beh ödənilməlidir (tələbkar beh ödəməkdən azaddır). Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - torpaq sahələrinin müvafiq olaraq ilkin satış qiymətlərinin 1%-dən artıq olmamaqla.
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Sumqayıt şəhəri üzrə İcra İdarəsinin 46/35 saylı, 13.04.2021-ci il tarixli sifarişi ilə (daxil olma 03.06.2021) ipoteka predmeti olan, Sumqayıt şəhəri, 14-cü məhəllə, ev 3/7A, mənzil 1 açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 29 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 26.000 (iyirmi altı min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (26.000) 5%-i, yəni 1.300 (bir min üç yüz) manat məbləğində beh ödənilməlidir (tələbkar beh ödəməkdən azaddır). Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - mənzilin ilkin satış qiymətinin 3%-dən artıq olmamaqla.
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Xaçmaz rayon İcra Şöbəsinin 377/2021 saylı, 27.05.2021-ci il tarixli sifarişi ilə (daxil olma 02.06.2021) ipoteka predmeti olan, Xaçmaz şəhəri, Mehman Babayev küçəsində yerləşən 0,04 ha torpaq sahəsi və üzərində yerləşən 2 mərtəbəli yaşayışı evi, Xaçmaz rayonu, Sərkərli kəndində yerləşən 1.0 ha torpaq sahəsi, Xaçmaz rayonu, Qaradağ-buduq kəndində yerləşən 3.0102 ha torpaq sahəsi, Xaçmaz rayonu, Qaradağ-buduq kəndində yerləşən 0.3398 ha torpaq sahəsi və 0.907 ha torpaq sahəsi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 29 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti: 0.04 ha torpaq sahəsi və onun üzərindəki fərdi yaşayış evi - 280.000 (iki yüz səksən min) manat; 3.0102 ha torpaq sahəsi - 63.000 (altmış üç min) manat: 0.907 ha torpaq sahəsi - 22.000 (iyirmi ki min) manat; 1.0 ha torpaq sahəsi - 12.000 (on iki min) manat; 0.3398 ha torpaq sahəsi - 9.000 (doqquz min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (0.04 ha torpaq sahəsi və onun üzərindəki fərdi yaşayış evi) 5%-i, yəni 14.000 (on dörd min); (3.0102 ha torpaq sahəsi) 5%-i, yəni 3.150 (üç min yüz əlli); (0.907 ha torpaq sahəsi) 5%-i, yəni 1.100 (bir min yüz; (1.0 ha torpaq sahəsi) 5%-i, yəni 600 (altı yüz); (0.3398 ha torpaq sahəsi) 5%-i, yəni 450 (dörd yüz əlli) manat məbləğində beh ödənilməlidir (tələbkar beh ödəməkdən azaddır). Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - torpaq sahələrinin və fərdi yaşayış evinin müvafiq olaraq ilkin satış qiymətlərinin 3%-dən artıq olmamaqla.
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli (daxil olma 02.06.2021), 7487-26644/19-15-5 saylı sifarişi ilə "Geely MR" minik markalı, 90-DE-642 dövlət qeydiyyat nişanlı avtomobil açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 18 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 3.000 (üç min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (3.000) 10%-i, yəni 300 (üç yüz) manat məbləğində beh ödənilməlidir (tələbkar beh ödəməkdən azaddır). Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli (daxil olma 04.06.2021), 7515/27708/19-15-18 saylı sifarişi ilə "Avesta Konserni" MMC-yə məxsus Bakı şəhəri, Yasamal rayonu, 589-cu məhəllə, H.B.Zərdabi 74 ünvanında yerləşən 20 kv.m qaraj sahəsi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 18 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 20.000 (iyirmi min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (20.000) 10%-i, yəni 2.000 (iki min) manat məbləğində beh ödənilməlidir (tələbkar beh ödəməkdən azaddır). Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.
Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 04.06.2021-ci il tarixli (daxil olma 04.06.2021), 7662-190361/19-115-19 saylı sifarişi ilə ipoteka predmeti olan Bakı şəhəri, Nərimanov rayonu, Əhmədbəy Ağaoğlu küçəsi, ev 12 ünvanında yerləşən 35 saylı mənzil açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 29 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 202.000 (iki yüz iki min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (202.000) 5%-i, yəni 10.100 (on min yüz) manat məbləğində beh ödənilməlidir (tələbkar beh ödəməkdən azaddır). Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 3%-dən çox olmamaqla.
(Əlavə olaraq "Qeyd"ə bax).

---

Sumqayıt şəhəri üzrə İcra İdarəsinin 01.04.2021-ci il tarixli (daxil olma 07.06.2021), 75/16 saylı sifarişi ilə ipoteka predmeti olan "Chevrolet Aveo" minik markalı, 99-EF-552 q/n dövlət nömrə nişanlı avtomaşın açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 29 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 11.000 (on bir min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (11.000) 5%-i, yəni 550 (beş yüz əlli) manat məbləğində beh ödənilməlidir (tələbkar beh ödəməkdən azaddır). Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) saat qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 3%-dən çox olmamaqla.
(Əlavə olaraq "Qeyd"ə bax).

---

*QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;*

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 5 (beş) iş günü müddətində geri qaytarılır;

10) İpoteka predmetləri üzrə hərrac baş tutmadıqda, habelə keçirilməsindən imtina edildikdə hərracın təşkilatçısı tərəfindən beh məbləği 7 (yeddi) təqvim günü müddətində geri qaytarılır;

11) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

12) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**

# “Müğənnisənsə, get mahnını oxu...”



Zaman-zaman şou nümayəndələri ilə qələm əhli arasında qalmaqal yaşanır. Əsasən buna səbəb yazıçıların, şairlərin şou-biznesdəkiləri haqlı tənqid etməsi olur.

*Tural Cəfərov: “Azərbaycan mədəniyyəti, maarifi Nadir Qafarzadənin ümidinə qalmayıb”*

Lakin qarşı tərəfin cavabı ürəkaçan deyil. Onlar tənqidə təhqirlə, bəzən isə təhdidlə cavab verirlər. Dəfələrlə bu tipli mübahisələrə məhz efirlərdə şahid olmuşuq. İki cəbhənin nümayəndələri proqramlarda qarşı-qarşıya gəliblər. Hansısa bir mövzunun müzakirəsinin sonu xoş bitməyib.

Məsələn, yazıçı Kəramət Böyükçöl meyxananı tənqid etdiyi üçün bəzi söz ustaları tərəfindən təhdid olunub. Yaxud da verilişlərin birində prodüser Anar Mədətov yazar Tural Cəfərova *(Qan Tural)* hücum çəkib.

**Elə biz də Tural bəylə həmsöhbət olub, mövzu haqda danışdıq. O, ”Şərq”ə deyib ki, şou adamlarına ilahidən bir istedad verilib:**

”Bəzilərinə o da bəxş olunmayıb. Ümumiyyətlə onlar öz işləri ilə məşğul olmalıdırlar. Amma belə etmirlər. Bir müddət sonra özlərini bütün sahələrdə ekspert kimi təqdim etməyə başlayırlar. Media, xüsusilə də televiziyalar buna dəstək olurlar. Sanki ən yaxşı ata, ən müdrik insan özləri imiş kimi danışırlar. Müğənnisənsə, mahnını oxu get də. Axı başqa bir işin yoxdur. Bu dövrdə müğənniləri bizə ”rol model” kimi göstərməyə çalışırlar. Əslində isə bir çoxu bisavaddırlar (”istisnalar çox azdır” deyə qeyd edir - red). Onlar da özlərini böyük şəxsiyyət hesab edirlər. Məsələn, yaxın günlərdə Nadir Qafarzadə deyib: ”Toyların açılmasını istəmirəm, kaş məktəblər açılsın”. Ayda-ildə bir dəfə maarifin, mədəniyyətin xeyrinə söz dedi, o da yanlışdır. Çünki məktəblər açıqdır (gülür). Allah da onu düz söz deməyə qoymadı. Azərbaycan mədəniyyəti, maarifi Nadirin ümidinə qalmayıb. Ümumiyyətlə, ideal təşkil olunmuş cəmiyyətlərdə hər şey öz yerində olur. Bizdə isə bir toy müğənnisi öz statusundan çıxaraq cəmiyyəti düzənləməyə, mənəvi dəyərləri qaydaya salmağa can atır. Bu da istər-istəməz hər kəsdə, xüsusilə də ziyalı təbəqədə ikrah doğurur. Onu da qeyd edim ki, hamı efirlərdə müğənniləri görəndə ”bunlar kimdir ki” deyib əsəbiləşir. Sonra da həmin müğənniləri toyuna çağırır. Burda hamımız bir-birimizi aldatma oyunu oynayırıq. Misal üçün, Nadir Qafarzadə pisdir deyirlər, lakin toya çağırılır”.

**Samirə Ərəblinski**



## “Atamızın adı üstümüzdədir"

Xalq artistinin oğulları sənətdən danışıblar

**Xalq artisti Firuz Əliyevin özü kimi musiqiçi oğulları Əli və Abbas ”Bazar düzü” proqramında qonaq olublar.**

*”Şərq” xəbər verir ki, onlar sənət fəaliyyətləri haqda danışıblar. Tar ifaçısı olan Əli estrada müğənniləri ilə toylara getmədiklərini söyləyib:*

”Yalnız muğam ifaçıları ilə məclislərə qatılmışıq. O zaman da sifariş ifaçıya deyil, bizə görə gəlirdi. Bəlkə də bir az atamla bağlı bizi dəvət ediblər”.

**Abbas isə qardaşı ilə razılaşmayaraq belə deyib:** ”Firuz müəllimin adı daim üstümüzdədir. Lakin həmişə deyirlər ki, ”Atalarına görə dəvət olunurlar”. Atamıza görə də bir dəfə çağırarlar da, ikinci dəfə yox. Özümüzə görə də dəvət ediblər. Atamızın sayəsində həmişə yaxşı musiqiçilərin, sənətkarların içində olmuşuq”.

**Samirə**



## İbrahim Borçalı mərhum oğlundan video paylaşdı

**Müğənni İbrahim Borçalı ötən il avtomobil qəzasında dünyasını dəyişən oğlunun videosunu paylaşıb.**

”Şərq” xəbər verir ki, o, Rəhimin sükan arxasında çəkilən videosunu profilində yerləşdirib. Sənətçi paylaşıma bir qeyd də yazıb: **”Yaxşı ki, bu dünyaya gəlmişdin”.**

**Samirə**

# Ağadadaş Ağayev yenə əməliyyat olunacaq

*Hacı Nuran müğənniyə dualar istəyib*

Xərçəng xəstəliyindən əziyyət çəkən Xalq artisti Ağadadaş Ağayev növbəti dəfə əməliyyat olunacaq.

**”Şərq” xəbər verir ki, bu barədə aparıcı Nuran Hüseynov (Hacı Nuran) məlumat yayıb. O, instaqram profilində bunları yazıb:**

”Hazırda qəlbim Ağadadaşın yanındadır. Çünki qardaşım sabah yenidən əməliyyat olunacaq. Düz bir ay onunla idim. Bu mənim vəfa borcumdur. Onun həyat eşqi məndə təəccüb doğurdu. Əslində mənim o xəstəliklə mücadilə apardığımı hamı bilir. Hətta mən belə onun qədər həyat dolu deyildim. İstanbulda ona hər gün baş çəkirdim. Hər dəfə Ağadadaş məni musiqi ilə qarşılayırdı. Düşünürdüm ki, onun motivasiyası musiqidir. Sabah qardaşım yenidən əməliyyat masasına uzanacaq. Ötən dəfə düz 5 saat əməliyyat keçirdi. Onun üçün doğmaları, ailəsi, mən və bütün Azərbaycan xalqı dua etdi. Yenə sizin dualarınıza ehtiyacı var. İnanıram ki, o, bu dəfə də əməliyyatdan alnıaçıq, salamat çıxacaq. Həyatın bütün sınaqlarından çıxdığı kimi...”.

**Samirə**



## “Yalnız burnumda əməliyyat var"

Rəqqasə Fatimə hələ estetik əməliyyat etdirmədiyini deyir



**”Düşünürəm ki, 5 il sonra ehtiyac olar. Təkcə burnumda əməliyyat var. O da get-gedə böyüyür”.**

Rəqqasə Fatimə Fətəliyeva ”ATV Maqazin onlarla” proqramının ”33 sual” rubrikasında qonaq olub. O, hansısa plastik əməliyyatının olmadığını söyləyib. **”Şərq” xəbər verir ki, sənətçi söhbətə davam edərək bunları deyib:** ”Bir dəfə Niyam məni gördü, dedi ki, niyə belə qocalmısan? Sonra qayıtdı ki, sənin qocalmağa haqqın yoxdur, çünki adın ”Göyçək Fatimədir”. Mən hələ estetik əməliyyat etdirməmişəm. Düşünürəm ki, 5 il sonra ehtiyac olar. Təkcə burnumda əməliyyat var. O da get-gedə böyüyür”.

**Samirə**

## Anasının görüntüləri yayımlandı

Afət Fərmanqızı göz yaşlarına hakim ola bilmədi



**Müğənni Afət Fərmanqızı ”Həmin Zaur” proqramında qonaq olub.**

Veriliş zamanı müğənninin anasının görüntüləri yayımlanıb. Bu zaman ifaçı göz yaşlarına hakim ola bilməyib.

**”Şərq” xəbər verir ki, sənətçi bunları söyləyib:** ”On dörd ildir ki, dünyasını dəyişib. Ən çox atama bağlı idim. Mənim sevənlərim var, bir də oğlumla görüntülü danışıram. Valideynlərim həmişə məni səhnədə görmək istəyirdi.

Birdən düşündüm ki, sağ olsaydı... Həmişə deyirdi ki, ürəyimdə qalan arzularımı sən həyata keçirərsən. Anam dövlət televiziyasında dəfələrlə canlı çıxış edib.

O vaxt Sahib İbrahimov balaca oğlan idi. ”Qazax xalq çalğı alətləri” ansamblı ilə gəlib canlı-canlı ifa edib gedirdilər”.

**Samirə**

## Röya Elnarəyə səsləndi

“Ərini də vur qoltuğuna gəl”



**Uzun müddətdir küsülü olan müğənnilər Röya Ayxan və Elnarə Xəlilova ”Dəyişən cavab verilişində barışıblar.**

Sözügedən proqramın növbəti qonağı E.Xəlilova olub. Aparıcı, stilist Anar Ağakişiyev R.Ayxana zəng edərək iki sənətçini danışdırıb.

**”Şərq” xəbər verir ki, xalq artisti həmkarını qonaq çağırıb:** ”Düzdür, ad günü qeyd etməyəcəm. Amma özümüz yığışacağıq. Rövşənə də denən onun üçün darıxmışam. Ərini də vur qoltuğuna gəl. Bir də ki, sən məni bloka atmısan. İnstaqramda axtarıram, tapa bilmirəm”.

**Samirə**

# 8 il həbsdə yatdı



## İndi ildə 200 min lirə qazanır

(Əvvəli səh: 16-da)

**Həbsxanadan çıxdıqdan sonra soxulcan gübrəsi istehsalı layihə ilə İŞKUR-a müraciət edib, maliyyə yardımı istəyib.**

Layihəsi bəyənilib və "Hibə dəstəyi" (hədiyyə olaraq maliyyə ayırma proqramı) çərçivəsində 18 min lirə maliyyə yardımı alıb. Soxulcan gübrəsi istehsalı üçün kiçik bir təsisat qurub. 4 il ərzində istehsalını genişləndirə bilib, 500 kvadrat metrlik ərazidə 20 milyon soxulcan bəsləyərək ayda 70 ton gübrə əldə etməyə nail olub. İllik gəliri isə 200 min lirədir. M.Güleç "mən həbsə girdiyimdə naqilli telefonlar vardı, mən həbsdən çıxanda artıq "ağıllı telefonlar". Nə edəcəyimi bilmirdim. Gübrə istehsalı fikri həbsdə olarkən ağlıma gəlmişdi. Layihə hazırladım, İŞKUR-a təqdim etdim. Qəbul etdilər. 18 min lirə yardım almaq haqqı qazandım. Çal əyalətində 100 kvadrat metrlik ərazidə işə başladım. İndi müəssisəmin ərazisi 500 kvadrat metrdir. Ayda 70 ton gübrə əldə edirəm. Gübrə bazarında yerim var artıq. Konya, Antalya, Dənizli və ətraf kəndlərə gübrə satıram. İldə 200 min lirə gəlir əldə edirəm" deyən M.Güreç məqsədinin azadlıqdan məhrum edilmiş qadınları istehsala cəlb etmək olduğunu söyləyib.

**Məlahət**

# Alimlər genetikası dəyişdirilmiş heyvanlar yaradıblar

(Əvvəli səh: 16-da)

**Çinin Uhan şəhərində elm adamları meymunlar və dovşanlar da daxil olmaqla mindən çox genetikası cəhətdən dəyişdirilmiş heyvan yaradıblar. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu barədə İngiltərənin "Daily Mail" qəzetində məlumat yayılıb. Məqalədə bildirilib ki, laboratoriyada olan heyvanların bir çoxu genetik cəhətdən hazırlanıb.**



Qeyd olunub ki, laboratoriya heyvanlarına genetik cəhətdən dəyişdirilmiş viruslar da vurulur ki, bunların da bir qismi COVİD-ə səbəb olan orqanizmə çox oxşayır: "Həqiqət budur ki, Çin dünyanın başqa yerlərində icazə verilməyən hər cür eksperimentləri həyata keçirir. Ancaq bunun daha da pis bir nəticələri var. Məsələn, bu laboratoriyaların "biosafe" olması nəzərdə tutulur. Lakin canlı heyvanlarla işləmək özünəməxsus təhlükəsizlik problemləri yaradır. Nəticədə, meymunlar bir test borusunda saxlanılan bir patogendən fərqli olaraq qaçır, dişləyir və cızır, ayrıca ifraz edir, onlarda parazit var, dəri və xəz tökürlər. Bütün bunlar çirklənmə riskini daşıyır. Bu da nəticədə bəşəriyyətdə yeni virusların yaranmasına səbəb olur. Hətta vaxtilə iki çinli akademik tərəfindən yazılmış "2019-nCoV Coronavirusun Mümkün Mənşəyi" adlı məqalədə Vuhan Xəstəliklərə Nəzarət və Qarşısını Alma Mərkəzinin 605 yarasa da daxil olmaqla xəstə heyvanları laboratoriyalarında saxladığı yazılmışdı. Bütün bunlar narahatlıq doğurur. Çin Kommunist Partiyasının 70 illik hakimiyyətinin sonunu gətirə bilər. Hesab edirik ki, Çin Çində başlayacaq və dünya nizamını alt-üst edəcək bir siyasi zəlzələyə başlaya bilər".

**Aynurə**

# Arzusuna çatacaq



## Ceff Bezos iyulun 20-də qardaşı ilə birlikdə kosmosa uçacaq

**"Amazon" və aerokosmik "Blue Origin" kompaniyalarının qurucusu, dünyanın ən varlı insanlarından biri olan Ceff Bezos qardaşı Mark ilə birgə kosmosa uçacaq.**

Azərtac bildirir ki, uçuş iyulun 20-də "Blue Origin" kompaniyası tərəfindən hazırlanan "New Shepard" kosmik gəmisi ilə baş tutacaq. "New Shepard" yer atmosferindən kənarda qısa suborbital turist uçuşları üçün nəzərdə tutulan birpilləli raketdir. Kosmik gəminin sərnişin bölməsində altı nəfərlik oturacaq və Yer səthini müşahidə etmək üçün dörd illüminator var. "Blue Origin" kompaniyası raketi dəfələrlə sınaqdan keçirib, lakin sınaqlarda insanlar iştirak etməyib.

"Beş yaşından bəri kosmosa səyahət etməyi arzulamışam. İyulun 20-də bu səyahəti qardaşımla birgə həyata keçirəcəyəm. Ən yaxşı dostumla ən böyük macəra", - deyə Ceff Bezos özünün İnstaqram səhifəsində yazıb. İyulun 20-də raket onlarla kilometr yüksəyə qalxacaq. Bundan sonra kosmik turistləri daşıyan aparat raketdən ayrılacaq və kosmosun 100 kilometr yüksəklikdə yerləşən şərti sərhədini keçəcək. Sərnişinlər bir müddət çəkisizlik şəraitində qalacaq. Sonra kapsul paraşütün köməyi ilə enməyə başlayacaq. Eyni zamanda, aparatdan ayrılan pillə şaquli eniş həyata keçirəcək. Kosmik səyahətə, həmçinin bir sərnişin yeri uğrunda iyunun 10-da başa çatacaq online hərracın qalibi də qatılacaq. Hazırda kosmosa bilet üçün ən yüksək təklif 2,8 milyon dollar təşkil edib. Qalib iyunun 12-də məlum olacaq.



## Azərbaycanda kompüter istehsalında ciddi artm müşahidə edilib

**Azərbaycanda kompüter istehsalında ciddi artm müşahidə edilib.**

Trend-in məlumatına görə, 2021-ci ilin yanvar- aprel aylarında kompüter, elektron vəoptik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində 71,30 milyon manatlıq məhsul istehsal olunub.

Əvvəlki ilin yanvar-aprel ayları ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 2,8 dəfə, elektrik avadanlıqlarının istehsalı isə 65,2 faiz artınb.

Dövr ərzində əvvəlki ilin yanvar-aprel ayları ilə müqayisədə stolüstü kompüterlərin istehsalı 31,5 dəfə, mayelərin məsrəfi və ya səviyyəsinin ölçülməsi, yoxlanması üçün cihazların istehsalı 2,7 dəfə, məişət soyuducularının istehsalı 2,2 dəfə, qəbuledici qurğuları olmayan radio vəteleviziya verilişləri aparatlarının istehsalı 73,1 faiz artıb.

**Elan**

Naxçıvan MR Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Seyidova Sünbül Heydər qızının adına olan Binə Atçılıq YYS-də yerləşən torpaq sahəsinin çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-**MÜHASİBAT** (2 AY)

-**Mobil telefonların təmiri** (3 ay)

-**KOMPYUTER** (1-3 AY)

-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

-**Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 984



## Alimlər genetikası dəyişdirilmiş heyvanlar yaradıblar

**Çinin Uhan şəhərində elm adamları meymunlar və dovşanlar da daxil olmaqla mindən çox genetikası dəyişdirilmiş heyvan yaradıblar.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu barədə İngiltərənin "Daily Mail" qəzetində məlumat yayılıb. Məqalədə bildirilib ki, laboratoriyada olan heyvanların bir çoxu genetik cəhətdən hazırlanıb.

*Qeyd olunub ki, laboratoriya heyvanlarına genetik cəhətdən dəyişdirilmiş viruslar da vurulur ki, bunların da bir qismi COVİD-ə səbəb olan orqanizmə çox oxşayır: "Həqiqət budur ki, Çin dünyanın başqa yerlərində icazə verilməyən hər cür eksperimentləri həyata keçirir.*

*(Davamı səh: 15-də)*

**Aynurə**

## Arılar göbələk xəstəliyindən ölür

### Alimlər həyəcan təbili çalırlar



**Cənubi Afrikada yayılan bir xəstəlik arıların sayının gündən-günə azalmasına səbəb olub.**

Qlobal istiləşmə, ətraf mühitin çirklənməsi və insan faktoru ilə yanaşı, arılar hazırda göbələk xəstəliyi səbəbiylə ölür. "Şərq" "Cnnturk.com"a istinadən bildirir ki, ölkədə arılar arasında "AFB" xəstəliyinin yayılması da narahatlığa səbəb olub. Elm adamları arılar olmadığı təqdirdə dünyadakı canlı növlərinin çoxunun yox olacağı barədə xəbərdarlıq ediblər.

**Yeganə**

## Daşları belə parçalayır

### Heyvanın dişləri dəmirdəndir



**Alimlər "kiton" adlı bir varlığın dişlərinin dəmirdən olduğunu təyin ediblər.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, kitonların dişlərinin son dərəcə sərt olduğu bilinirdi, ancaq dəmir ehtiva etdiyi yeni bəlli olub. Kiton sinfinə aid olan canlının daşları necə parçaladığı da araşdırılıb. Yemək axtaran kitonlar dişlərini qayalara sürtür və xüsusən də yosun yeyirlər.

**Yeganə**

## Peyvəndləmə zamanı

### Dünyanın ən yaşlı insanı üzə çıxdı



**Hindistanlı həkimlər koronavirusa qarşı vaksinasiya zamanı təsadüfən dünyanın ən yaşlı qadınını aşkar ediblər.**

Belə ki, Baramul şəhərində həkimlər evdə vaksinasiya aparanda xəstələrdən biri 124 yaşlı Rehti Bequm olub.

Təsadüf nəticəsində yaşı üzə çıxan Rehti Bequm 2018-ci ildən bəri Yer üzündə yaşayan ən yaşlı insan heab edilən yapon qadın Kane Tanakadan altı yaş böyükdür. Bundan əlavə, hindistanlı uzunömürlü 1997-ci ildə 122 yaşında vəfat edən fransalı Janna Kalmandan da yaşlıdır - o, bu günə qədər yaşamış ən yaşlı insan hesab olunur. (medicina.az) Həkimlərin sözlərinə görə, Rehti Bequm koronavirusa qarşı peyvənd olunub.



# 8 il həbsdə yatdı

### İndi ildə 200 min lirə qazanır





**Hatayın Reyhanlı bölgəsinin sakini aqrar mühəndis Kübra Gürlər evinin altında soxulcan gübrəsi istehsal edərək ailə büdcəsinə gəlir gətirir.**

K.Gürlər hələ tələbə ikən təbii gübrə istehsalıyla maraqlanıb, bu işə həvəsli olub. İl yarım öncə isə 140 kvadrat metrlik evinin zirzəmisini "sənaye mərkəzi" halına dönüşdürüb. 300 min soxulcan alaraq gübrə istehsalına başlayıb. Qısa müddətdə soxulcanların sayı 1 milyona çatıb. 1 milyon soxulcandan K.Gürlər illik 12 ton gübrə əldə edir. "Şərq" Türkiyə mediasına istinadən bildirir ki, soxulcan gübrəsi istehsalı barədə K.Gürlər "Anadolu" agentliyinə danışıb. Xanım mühəndis deyib ki, müxtəlif ev heyvanlarının ifrazatlarını meyvə və tərəvəz çürüntüləri ilə qarışdırır və bu qarışıqla soxulcanları bəsləyir, 1 tona yaxın gübrə əldə edir və Hataya, Şanlıurfaya göndərir: "İşim çətin, amma əyləncəlidir. Soxulcanları bəlli mərhələdə bəsləyirik, onlara körpəyə qulluq edər kimi baxırıq. Bundan 2 min lirə qazancımız olur. Hədəfim istehsalı daha da genişləndirmək və soxulcan gübrəsi ixracatçısı olmaqdır". Türkiyədə son illərdə soxulcan gübrəsi getdikcə populyarlaşır. Dənizlidə yaşayan 50 yaşlı Mükərrəm Güleç də eynilə K.Gürlər kimi soxulcan gübrəsi istehsalı ilə məşğuldur. İki qadın arasındakı fərq budur ki, Mükərrəm Güleç 8 il həbs yatıb.

*(Davamı səh: 15-də)*

**Məlahət**

## 2 aylıq körpəni polisin üzərinə fırlatdı

### O anlar anbaan kameralara düşüb



**Ağlasığmaz olay ABŞ-da yaşanıb. Polisin "dur" əmrinə tabe olmayan 32 yaşlı Con Henri Qomesin hərəkəti ətrafdakıları da şoka salıb.**

Polis 40 dəqiqə qaçaq sürücünün ardınca düşüb. Nəhayət ona yetişdiyində qaçaq sürücü avtomobildən düşərək bir binaya daxil olub. Polisin binaya yaxınlaşdığını görən qaçaq sürücü qucağında körpə binadan çıxıb və 2 aylıq körpəsini polisə tərəf fırladıb. Və yenidən qaçmağa cəhd edib. Lakin bu həmləsinə rəğmən polis tərəfindən yaxalanıb. Polis əməkdaşları onu yaxalayıb, bu zaman Con Henri onlara müqavimət göstərərək, təpikləyib və dişləyib. Görüntülərdə polis əməkdaşlarından birinin körpəni qucağında saxladığı, digərlərinsə qaçaq sürücünün əllərini qandalladığı görünür. Körpəni yaxalayan polis məmuru Yakob Curry bunları söyləyib: **"İndiyədək bir çox çılğın davranışlar görmüşdüm, amma beləsini görməmişdim. Bu nəsə başqa, görünməmiş bir hərəkətdi. O anda onu necə ələ keçirəcəyimi düşünə bilmirdim, çünki qucağında körpə vardı. Amma o birdən bizə tərəf döndü və təqribən 2 metr məsafədən körpəni bizə tərəf fırlatdı. Yaxşı ki, körpəni tuta bildim. Atanı da qaçıb başqa bir avtomobilə minmədən yaxaladıq".**

**Məlahət**

## Farahın yerinə Fahriye gəlir



**Ötən ay "Masumlar apartmanı" serialından ayrılan Farah Zeynep Abdullahın yerinə gələcək aktrisanın kimliyi məlum olub.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, ekran işində baş rollardan birini Fahriye Evcən canlandıracaq. O, serialda "Ceylan" obrazına həyat verəcək.

*Qeyd edək ki, Farah stressli və dramatik səhnələrə görə "Masumlar apartmanı"ndan ayrılıb.*